11 may 2022 №35 (1908) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Bizə Qələbəni yaşadanlar üçün

## "Mənim Azərbaycanım" – xeyriyyə konserti

Mayın 9-da Heydər Əliyev Sarayında Azərbaycan Dövlət Rəqs Ansamblının xeyriyyə konserti keçirildi. "Mənim Azərbaycanım" adlı konsert Mədəniyyət Nazirliyinin təşkilatçılığı, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası və Heydər Əliyev Sarayının dəstəyi ilə reallaşdı.



Konsertdən əvvəl mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək dedi ki, ölkəmiz tarixinin mahiyyət etibarilə yeni bir dövrünü yaşayır. Bu tarix çox şərəfli, qürurverici mərhələdir: "Əsas mahiyyət ərazi bütövlüyümüzün bərpasıdır. Əslində, ərazi bütövlüyümüzlə yanaşı, biz şərəfimizi də bərpa etmişik. Bu Qələbə ilə öz mədəniyyətimizi də bütövləşdirmişik. Çünki bu torpaqlarda əcdadlarımız hər zaman zəfər çalıb, bayraq ucaldıb, dövlət yaradıblar. Mədəniyyətimizdə vətən, ordu, əsgər, ləyaqət anlayışı hər zaman xüsusi mövqedə dayanıb. Ali Baş Komandanın rəhbərliyi, müzəffər Ordumuzun şücaəti ilə bu anlayış və dəyərləri mədəniyyətimizin bir hissəsinə çevirə bildik. Mədəniyyət Nazirliyi olaraq əsas məqsədimiz mədəniyyətin davamlılığını təmin etməkdir. Millətin kimliyi onun mədəniyyəti ilə ölçülür: musiqisi, muğamı, rəqsi ilə. Biz gələcəyə özümüz olaraq qədəm qoymaq istəyiriksə, mədəniyyətimizə, tariximizə sahib çıxmalıyıq".

Elnur Əliyev konserti izləməyə gəlmiş bizə böyük Qələbəni yaşadan qazilərə ayrıca təşəkkür etdi: "Onilliklərlə yaddaşımızı silmək cəhdlərinə, tariximizin yanlış yozulmasına baxmayaraq, biz dar məqamda birləşməyi bacardıq və ordu olduq. Biz bu birliyi yaşatmalıyıq. Hər bir vətəndaş bu ölkənin təmsilçisi olmağı ilə fəxr etməlidir. Vətənimizin daşı olmağı bacarmalıyıq. Konsertdən əldə olunan vəsait "YAŞAT" Fonduna ianə ediləcək. Konsertə dəstək verən hər kəsə təşəkkür edirəm".

Xatırladaq ki, "YAŞAT" Fondu Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli fərmanına əsasən yaradılıb. Fondun məqsədi Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin sosial müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi tədbirlərə əlavə dəstək verilməsidir.

*davamı səh. 2-də*

# Prezident və birinci xanım Füzuli və Şuşaya səfər ediblər

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər.



Dövlətimizin başçısı və birinci xanım Füzuli şəhərində Peşə liseyinin təməlini qoyub, yeni yaradılacaq mərkəzi parkın ərazisində ağac əkib, rayon mərkəzi xəstəxanasının təməlqoyma mərasimində iştirak ediblər.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə gəliblər.

Dövlətimizin başçısına və birinci xanıma Şuşadakı inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri barədə məlumat verilib.

Prezident və birinci xanım Heydər Əliyev Fondu tərəfindən Şirin su hamamında, tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın evində, Mehmandarovların malikanə kompleksində aparılacaq bərpa işləri, həmçinin "Shusha Boutique Hotel"də və Şuşa Realnı məktəbinin tarixi binasında həyata keçiriləcək təmir-bərpa işləri ilə tanış olublar.

Sonra Prezident İlham Əliyev Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

Prezidentin və birinci xanımın Füzuli və Şuşa səfərindən ətraflı material qəzetin növbəti sayında...

# Əməlləri ilə əbədiyyət qazanmış lider

Ümummilli lider Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz insan olaraq qalacaq. Çünki o öz işləri, əməlləri ilə hələ sağlığında tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan tarixində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb.

*səh. 2*

# BMT-də "Mədəniyyət naminə sülh" qlobal çağırışının fəaliyyət planı imzalanıb

BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal çağırışının mütəşəkkil fəaliyyət planının imzalanma mərasimi olub.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov mədəniyyətlərarası dialoqun davamlı sülhün qorunması üçün rolunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan tolerant və müxtəlif mədəniyyətli ölkədir. Bu mühit tarix boyu milliyyətindən asılı olmayaraq hər kəsin bərabər hüquqa malik olub, sülh içində yaşayıb-yaratmasına təkan verib. Gerçəkləşən layihə də bu amala xidmət edir.

*səh. 3*

# Xarıbülbül yenə dünyanı Şuşanın seyrinə çağırır

12-14 may tarixində Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğunun təşkilatçılığı ilə V Xarıbülbül Beynəlxalq Folklor Festivalı keçiriləcək.




1989-1991-ci illərdə Şuşa şəhərində və digər Qarabağ bölgələrində keçirilən beynəlxalq musiqi festivalı 30 illik fasilədən sonra – 2021-ci ildə bərpa edilib.

Şuşa şəhərində 1989-cu ilin mayında keçirilən ilk Xarıbülbül festivalı məşhur xanəndə Seyid Şuşinskinin (1889-1965) 100 illik yubileyinə həsr olunmuşdu. Festivala yerli ifaçılarla yanaşı, Qırğızıstan, Qazaxıstan, Başqırdıstan (Rusiya Federasiyası), Litva və Belarusdan musiqi kollektivləri də qatılmışdı. Konsertlər Cıdır düzü meydanında qurulmuş yeddi məkanda keçirilmiş, tədbirin ilk günü Qarabağ atları üzərində yarışlar və güləş yarışları ilə də yadda qalmışdı.

1990-cı ildə Xarıbülbül festivalı beynəlxalq status alıb. Festivala Hollandiya, Almaniya, İsrail və Türkiyədən folklor qruplarının dəvət olunması ictimaiyyətdə böyük marağa səbəb olub. Qarabağ münaqişəsinin başlaması ilə bağlı Şuşada ağır vəziyyət yarandığından əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib.

1991-ci ildə keçirilən III Xarıbülbül festivalına 25 ölkədən nümayəndələr qatılıb. ABŞ və Avstraliyadan rəssamlar da festivalda iştirak edib. Tamaşaçıların çoxluğu səbəbindən festivalın əsas konsertləri Ağdam şəhər stadionunda keçirilib.

II və III festivalların yekun konsertləri Bakıda indiki Heydər Əliyev Sarayında təşkil olunub.

Dördüncü festival 1992-ci ilin mayında keçirilməli idi. Dünyanın 30-dan çox ölkəsindən qonaqlar dəvət edilmişdi. Həmin ilin 8 mayında Qarabağın baş tacı Şuşa Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildən sonra təşkilat komitəsi festivalı ləğv etdi. Xarıbülbülün yurdu Şuşasız artıq bu festivalın önəmi də qalmamışdı.

Xarıbülbül festivalı mədəniyyət paytaxtımızın 28 il sürən işğaldan azad edilməsindən sonra bərpa olundu. Azərbaycanın mədəniyyət paytaxtı yenə doğmalarını, qonaqlarını qarşıladı.

2021-ci il mayın 12-13-də Şuşanın Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən IV festivalın ilk günündə milli rəqs, muğam sənəti təqdim olundu. Azərbaycanın müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirildi, müxtəlif illərdə Şuşada lentə alınmış Azərbaycan xanəndələrinin ifalarından ibarət videoçarxlar nümayiş etdirildi. Festivalın ikinci günündə Azərbaycan bəstəkarlarının klassik musiqi əsərləri təqdim olundu. Konsertdə Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xoru, həmçinin tanınmış vokal ifaçıları və digər solistlər çıxış etdilər.

Xalqımızın mübarizə ruhunun, tarixi Zəfərinin rəmzi olan Xarıbülbül yenidən dünyanı Şuşanın seyrinə çağırır. V Xarıbülbül Beynəlxalq Folklor Festivalı mədəniyyət paytaxtımızın yeni növrağını, səsini dünyaya duyuracaq...



# 12 ölkənin dad və ləzzətləri bir arada

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa 5-8 may tarixində kulinariya festivalına ev sahibliyi edib. Şuşa Beynəlxalq Kulinariya Festivalında 11 ölkənin və Azərbaycanın 11 iqtisadi rayonunun mətbəx nümunələri nümayiş olunub.

*səh. 4*

# Turində Avroviziya həyəcanı

## 40 ölkə iştirak edir




Mayın 10-da İtaliyanın Turin şəhərində "Avroviziya-2022" mahnı müsabiqəsi başlayıb. Azərbaycanda İctimai Televiziyanın efirində canlı yayımlanan 66-cı Avroviziya Mahnı Müsabiqəsi "The Sound of Beauty" (Gözəlliyin sədası) devizi altında keçirilir.

40 ölkənin iştirak etdiyi "Avroviziya-2022"nin yarımfinal tarixləri 10 və 12 may, final tarixi isə 14 maydır.

İki yarımfinalda ümumilikdə 35 ölkə təmsilçisindən 20-si finala vəsiqə qazanacaq. Fransa, Almaniya, İspaniya, Böyük Britaniya və ev sahibi İtaliya yarışmaya birbaşa finaldan qoşulacaq.

Azərbaycan təmsilçisi Nadir Rüstəmli "Fade to black" (Qaraya dön) adlı mahnı ilə ikinci yarımfinalda çıxış edəcək. Həmin gün Azərbaycanla yanaşı, Rumıniya, Şimali Makedoniya, Belçika, Kipr, İrlandiya, Estoniya, Avstraliya, San-Marino, Monteneqro, Polşa, Finlandiya, İsveç, Malta, İsrail, Gürcüstan, Serbiya, Çexiya təmsilçiləri də səhnəyə çıxacaqlar.

# İstiqlal şairinin Vətən nəğmələri

XX əsrin birinci yarısında xalqımızın azadlıq və milli istiqlal ideyasının gerçəkləşməsi uğrunda mübarizə aparan, 30-cu illər repressiyasında "xalq düşməni" kimi qətlə yetirilən böyük ziyalılarımızdan biri də şair Əhməd Cavad olub. Tərcüməçi, maarifçi-pedaqoq və ictimai xadim kimi də tanınan şairin zəngin yaradıcılığında dövrün ictimai-siyasi mənzərəsi dolğunluqla əksini tapıb.



*səh. 6*

# Fikrət Əmirovun yaradıcılığında Azərbaycan mövzusu

Fikrət Əmirovun "Azərbaycan süitası", "Azərbaycan kapriççiosu" və "Azərbaycan qravürləri" əsərlərində qədim diyarımızın tarixi, dünəni, bu günü, füsunkar təbiəti, insanların mərd, mübariz olması və bu kimi düşüncələr yüksək vətənpərvərlik mövqeyi ilə notlara düzülüb və xoş melodiyalarla da qulaqlara süzülür. Bu əsərlər öz melodik gözəlliyi və yüksək professionallığı ilə dünya musiqiçilərinin də diqqətini cəlb edib.

*səh. 7*

Oqtay Rəcəbovun yubileyinə həsr olunmuş konsert



*səh. 3*

Mədəniyyət Nazirliyi "Mədəni gənclik" adlı yeni layihəyə başlayıb

*səh. 3*



Nyu-Yorkda "Ağdam deləndə est" adlı sərgi

*səh. 8*

№35 (1908)
11 may 2022
www.medeniyyet.az

## Mədəniyyət xadimlərinə Prezident təqaüdü verilib

Prezident İlham Əliyev mayın 10-da bir qrup mədəniyyət xadiminə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Prezidentin fərdi təqaüdü verilib: Abdullayev Kyazım Ənvər oğlu, Balayev Məmmədəli Bəşir oğlu, İmanova Gülbacı Əliəkbər qızı, Qarayev Fərəc Qara oğlu, Novruzova Nubar Qulu qızı, Sadıqov Faiq Əbülfəz oğlu, Verdiyev Fikrət Süleyman oğlu.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 2002-ci ilin 11 iyun tarixində təsis edilib.

## Səhnə fəaliyyəti ilə bağlı

### 150 nəfər Prezident mükafatı alacaq

Səhnə fəaliyyəti ilə məşğul olan incəsənət xadimlərinin böyük bir qrupuna Prezident mükafatı verilib. Dövlət başçısı İlham Əliyev bununla bağlı mayın 10-da sərəncam imzalayıb.

Sərəncamla ümumilikdə 150 nəfər incəsənət xadimi 2022-ci ildə Prezident mükafatı alacaq.

İncəsənət xadimlərinə Prezident mükafatları 2002-ci ildən verilir. Ulu öndər Heydər Əliyev 2002-ci il 28 may tarixində Azərbaycan Respublikasının incəsənət xadimlərinə dövlət qayğısının artırılması məqsədilə xüsusi fərman imzalayıb. Fərmana əsasən, səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimləri üçün hər biri ayda 500 manat olmaqla Azərbaycan Respublikası Prezidentinin mükafatları təsis edilib.

Prezident mükafatları ilk illərdə 75 nəfərə, 2007-ci ildən 100, 2013-cü ildən 130 nəfərə verilib. 2017-ci ildən dövlət başçısının müvafiq fərmanına əsasən 150 nəfərə verilir.

## Mədəniyyət Nazirliyinin rəhbərliyi ulu öndərin məzarını ziyarət edib



Mayın 10-u dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin doğum günüdür. Ulu öndərin anadan olmasının 99-cu ildönümü münasibətilə dövlət rəsmiləri, ictimaiyyət nümayəndələri Fəxri xiyabana gələrək Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Mədəniyyət Nazirliyinin rəhbərliyi dahi siyasətçi, mədəniyyətimizin böyük himayədarı Heydər Əliyevin məzarını ziyarət edib.

Mədəniyyət naziri Anar Kərimov, nazirin birinci müavini Elnur Əliyev, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli və nazirliyin məsul əməkdaşları Fəxri xiyabanda Heydər Əliyevin məzarüstü abidəsinin önünə gül dəstələri qoyub, ulu öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

## Ümummilli liderin anadan olmasının 99-cu ildönümü münasibətilə

### Ankarada konsert proqramı

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar mayın 9-da Azərbaycanın Türkiyədəki Səfirliyi tərəfindən Ankarada konsert proqramı təşkil olunub.




Türkiyə Prezidenti Administrasiyasının Simfonik orkestr konsert salonunda keçirilən tədbir iki dövlətin himnlərinin səslənməsi ilə başlayıb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxış edərək ümummilli lider Heydər Əliyevin mənalı ömür yolundan, xilaskarlıq missiyasından, Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsinə verdiyi töhfələrdən bəhs ediblər. Diqqətə çatdırılıb ki, qardaş ölkələr arasında əlaqələr Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə dinamik şəkildə inkişaf edərək müttəfiqlik səviyyəsinə yüksəlib.

Konsertdə Türkiyədə yaşayan soydaşımız – pianoçu və dirijor, Azərbaycanın Əməkdar artisti Turan Manafzadənin rəhbərliyi ilə "Turan" orkestri və solist Elgün Quliyev (vokal) çıxış edib. Proqramda Azərbaycan klassik musiqisinin inciləri səslənib.

Tədbirdə rəsmilər, millət vəkilləri, Ankarada fəaliyyət göstərən diplomatik korpus təmsilçiləri, diaspor və mətbuat nümayəndələri iştirak ediblər.

Konsert salonunun foyesində Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotosərgi də nümayiş etdirilib.

# Əməlləri ilə əbədiyyət qazanmış lider

Mayın 10-da – Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümündə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət ediblər.




Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla anıb.

Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyublar.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

***

Ümummilli lider Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz insan olaraq qalacaq. Çünki o öz işləri, əməlləri ilə hələ sağlığında tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan tarixində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu öndər Azərbaycanı dünyaya tanıdıb. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", – deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Onun Azərbaycana rəhbərlik illəri tariximizdə milli intibah dövrü kimi əbədiləşib.

O, müstəqil Azərbaycan dövlətinin memarı oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizin gələcək inkişafına zəmin olacaq böyük neft erasının əsasını, qüdrətli Azərbaycan Ordusunun təməlini qoydu. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan lider idi. Ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli liderin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun...".

Həmin vaxt 2020-ci ildə yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev yerinə yetirdi. Ulu öndərin təməlini qoyduğu Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı. Bununla da "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən ulu öndərin ən böyük arzusu həyata keçdi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Xalqımız bundan sonra böyük dövlət xadimi, müasir Azərbaycanın banisi Heydər Əliyevin hər doğum gününü Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edəcək.

əvvəli səh. 1-də

# Bizə Qələbəni yaşadanlar üçün

### Qəhrəmanlıq, incəlik...

Konsert proqramı "Mənim Azərbaycanım" adlı kompozisiya ilə başladı. İlk çıxışdan rəqqaslarımız gurultulu alqışlarla qarşılandılar. Rəqslər bir-birini əvəz etdikcə, Azərbaycan igidlərinin qəhrəmanlığı və cürəti, qızlarımızın isə incəliyi və nəcibliyi nümayiş olunurdu. Seçilən hər bir nömrə yüksək dərəcədə zövqlü palitrası ilə fərqlənirdi. Növbələşən rəqslərdə Azərbaycanın təbiət gözəllikləri tərənnüm olunur, sanki azad olunmuş torpaqların azad ruhu cövlan edirdi. Mədəniyyət paytaxtımız Şuşaya ərməğan edilən bu rəqslər sanasan 30 ildir boynu bükülü qalan xarıbülbülün cilvəli rəqsi idi. İncəbelli Azərbaycan qızları lirik əhval-ruhiyyəli rəqsləri ilə qəhrəman şəhid ruhlarına sığal çəkirdilər...





Hər bir rəqs nömrəsi bir tarix, bir anlam, bir mesaj idi. Ansamblın üzvləri milli rəqslərimizin möhtəşəmliyini dəqiqliklə, yüksək peşəkarlıqla təqdim edirdilər. Rəqqaslar rəqslərin mahiyyətini, parlaq və geniş musiqi xarakteristikalarını, səmimiliyi və milli zəminə bağlığı elə məharətlə təqdim edirdilər ki, bu möhtəşəmlik qarşısında tamaşaçı öz gurultulu alqışını əsirgəmirdi. Qələbə ruhlu çıxışlar zalda ecazkar bir qürur ovqatı yaratmışdı. Rəqqaslar sanki uca dağların başında qıy vuran şahinlərə bənzəyirdilər. Milli geyimlərimizin bu anlamda ötürdüyü aura da bu həmahənglikdə öz sözünü deyirdi. Milli rəqslərimizin hərəsi bir tarixdir, bir nağıldır. Filarmoniyanın səhnəsindən bütün zala qəhrəmanlıq nağılı sədası yayılırdı.

Rəqqasələrin parlaq çıxışları isə sanki su sonalarının süzməsinə bənzəyirdi. Melodik, rəngarəng, temperamentli musiqisi ilə Məşhur xoreoqraf, Rusiyanın Xalq artisti Dikalu Muzakayevin bədii rəhbərliyi ilə ərsəyə gələn proqrama Azərbaycanın milli rəqsləri, eləcə də "Koroğlu" dastanının motivləri əsasında hazırlanmış birpərdəli milli balet də daxil idi. Tamaşaçılar qəhrəmanlıq ruhunun əks olunduğu bu nümunəni də böyük maraqla qarşıladı.

### "Bizim həyatımız rəqsdir"

Dövlət Rəqs Ansamblının bədii rəhbəri, Xalq artisti Rüfət Xəlilzadə konsert sonrası təəssüratlarını qəzetimizlə bölüşdü. Dedi ki, azərbaycanlılar musiqini, rəqsi dərindən bilən xalqdır. Onu təəccübləndirmək çox çətindir: "Bu konsertdə isə bir daha əmin olduq ki, bizim mədəniyyətimiz, musiqimiz, rəqsimiz dünyada ən layiqli yerə malikdir. Bunu təsdiqləyən tamaşaçının alqışları idi. Bizim həyatımız rəqsdir. Pandemiya səbəbindən həyatımızın ritmi pozulmuşdu. Biz yenidən səhnəyə qayıtdıq və şahid olduq ki, rəqslərimiz sevilir. Bir rəqs nömrəsinin hazırlanması üçün aylarla əziyyət çəkirik. Bu proseslərdə zədələr də olur. Yalnız milli ruhda olan insanlar bu əziyyətə tab gətirib böyük bir millətin mədəniyyətini yaşadıb xalqa çatdıra bilər. Hər bölgəmizdə bu zənginlik var. Naxçıvanın Şərur bölgəsində 100-ə yaxın yallı növü var. Bu, böyük mədəniyyətə sahibliyin nümunəsidir. Bu xeyriyyə konserti Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə reallaşdı. Həm sevindirici, həm də məsuliyyətli təklif idi. Şükürlər olsun, bu işin öhdəsindən gəldik. Tamaşaçılar zalı tərk etmək istəmirdi və biz buna görə fəxr edirdik. Bədii rəhbər olaraq çox qürurverici idi ki, kollektivimiz bu dərəcədə alqışlarla qarşılandı".

Gecədə təqdim olunan "Koroğlu" birpərdəli milli baleti haqqında da söz açan Rüfət Xəlilzadə dedi ki, Dövlət Rəqs Ansamblı Qafqazda bir ilkə imza atıb, analoqu olmayan xalq rəqslərindən ibarət milli balet tamaşası yaradıb: "Bu baletdə milli oyunlarımızdan, zorxanadan, ən qədim aşıq musiqisi, "Qoç Koroğlu", "Koroğlu nağarası" musiqilərindən istifadə etmişik. "Misri", qədim Naxçıvanın heç vaxt səhnədə olmayan yallı növü "Qaladan qalaya" yallısı da milli baletin bəzəyidir. Bu gün səhnədə gurultulu alqışlarla qarşılanan bu rəqsləri Əlibaba Abdullayev yaradıb. Necə ki, Üzeyir bəyin "Leyli və Məcnun"u yüz ildən çoxdur yaşayır, onun da sənəti beləcə yaşayacaq. Amma bir vaxtlar bu konsertdə ifa edilən rəqsləri "köhnədir" deyə səhnəyə çıxarmağa icazə vermirdilər... Kişilərimizin cəngavərliyi görünməlidir bu rəqslərdə. Yəqin ki, bu konsertdə bizim neçə növ milli papaqdan istifadə etdiyimizi gördünüz. Biz onların hamısını səhnəyə qaytarmışıq. Rəqs özü canlı tarixdir. Bizim milli rəqslər bir neçə mədəniyyət növünü bir araya gətirir. Folklor, adət-ənənə, milli geyim rəqsdə yaşayır. Arzum budur ki, biz bu zənginliyi dünya səviyyəsinə çıxarıb nümayiş etdirə bilək".

Qeyd edək ki, Azərbaycan Dövlət Rəqs Ansamblının "Mənim Azərbaycanım" konsert proqramı ilk dəfə 2017-ci ildə sənətsevərlərə təqdim olunub. Həmin il kollektiv Moskva və İstanbul səhnələrində çıxış edib.

**Lalə Azəri**

## Respublika Gənclər Kitabxanasında dəyirmi masa

Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Respublika Gənclər Kitabxanasında UNEC Tələbə Elmi Cəmiyyəti və "GUYS" (Gəncliyə dəstək üçün ümumi birlik) təşkilatı ilə birlikdə "Heydər Əliyev – Azərbaycan iqtisadiyyatı və mədəniyyəti" mövzusunda dəyirmi masa və "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" mövzusunda esse müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə kitabxananın direktoru Aslan Cəfərov, "GUYS" İctimai Birliyinin sədri Mübariz Quliyev, BDU-nun müəllimi Fəxriyyə İsayeva, digər qonaqlar çıxış ediblər.

Kitabxananın direktoru Aslan Cəfərov vurğulayıb ki, müdrik siyasəti ilə Azərbaycan dövlətçiliyinin tarixində əbədilik qazanan Heydər Əliyevin həyat yolu Azərbaycan xalqı üçün tükənməz bir mirasdır. Diqqətə çatdırılıb ki, Respublika Gənclər Kitabxanası ümummilli liderin həyat və fəaliyyəti ilə bağlı Azərbaycan, ingilis və rus dillərində məlumatlandırıcı videoçarxlar və virtual sərgi hazırlayıb.

Tədbirin sonunda UNEC Tələbə Elmi Cəmiyyəti və "GUYS" İctimai Birliyi tərəfindən elan edilən esse müsabiqəsinin qaliblərinə diplomlar təqdim olunub.

## "Tarix yazan şəxsiyyət"

Mayın 10-da Azərbaycan İstiqlal Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Tarix yazan şəxsiyyət" adlı açıq dərs keçirilib.

Muzeyin elmi işçiləri müasir Azərbaycan Respublikasının qurucusu, xalqının və dövlətinin gələcəyi naminə müstəsna xidmətlər göstərmiş Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məruzələrlə çıxışlar ediblər. Ümummilli liderin tarixi çıxışlarından ibarət videoçarx nümayiş olunub.

Sonda qonaqlar muzeyin ekspozisiyası, eləcə də 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə yüksələn mayor Vüsal Vəliyev, XTQ giziri Rəşad Babayev, XTQ əsgəri Cavid Hüseynov, əsgər Samir Paşayev və Şaiq Paşayevin şəxsi əşyaları, sənədləri və fotoşəkillərinin nümayiş olunduğu sərgi ilə tanış olublar.

# BMT-də “Mədəniyyət naminə sülh” qlobal çağırışının fəaliyyət planı imzalanıb

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimov ABŞ-a səfəri çərçivəsində Nyu-Yorkda bir sıra tədbirlərdə iştirak edib, görüşlər keçirib.



Mayın 5-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal çağırışının mütəşəkkil fəaliyyət planının imzalanma mərasimi olub. Tədbirdə Azərbaycan, Albaniya, Ermənistan, ABŞ, Pakistan, İspaniya və digər üzv dövlətlərin BMT-dəki daimi nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirib ki, 2021-ci ildə ölkəmizin təşəbbüsü ilə elan olunan “Mədəniyyət naminə sülh” layihəsi üzrə fəaliyyət planı artıq hazırdır. “Mədəniyyət naminə sülh” qlobal çağırışının əsas istiqaməti postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhün təmin edilməsidir.

Nazir vurğulayıb ki, dayanıqlı inkişafa olan töhfələrimiz dayanıqlı sülhdən keçir. Mədəniyyətlərarası dialoqun gücləndirilməsi davamlı sülhün qorunması üçün əvəzsizdir. Azərbaycan tolerant və müxtəlif mədəniyyətli ölkədir. Bu mühit tarix boyu milliyyətindən asılı olmayaraq hər kəsin bərabər hüquqa malik olub, sülh içində yaşayıb-yaratmasına təkan verib. Gerçəkləşən layihə də bu amala xidmət edir.

Anar Kərimov layihəni dəstəkləyən bütün üzv dövlətlərə təşəkkürünü bildirib. Qeyd edib ki, dünyamız üçün vacib olan “Mədəniyyət naminə sülh” təşəbbüsünün dəstəklənməsi olduqca sevindirici haldır. “Ümidvarıq ki, bundan sonra da layihə beynəlxalq maraqlı tərəflərin dəstəyini qazanaraq sülhün təmin olunmasında beynəlxalq ictimaiyyətə töhfə verəcək. Biz mədəniyyət naminə sülhə inanırıq”, – deyə nazir əlavə edib.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos “Mədəniyyət naminə sülh” təşəbbüsünə görə Azərbaycan dövlətinə təşəkkür edib.

Layihəyə dəstək verən BMT-yə üzv dövlətlərin daimi nümayəndələri də çıxışlarında dünyada sülh çağırışı edən Azərbaycan haqda xoş fikirlər söyləyiblər.

Sonda nazir Anar Kərimov və BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal çağırışının mütəşəkkil fəaliyyət planını imzalayıblar.

# “Mədəni gənclik”

## Nazirlik yeni layihəyə başlayıb



Mədəniyyət Nazirliyi “Mədəni gənclik” adlı yeni layihəyə başlayıb. Layihənin məqsədi gənclərin incəsənətə marağının artırılması və ölkənin mədəni həyatında yaxından iştirakına şərait yaradılmasıdır.

Mayın 6-da layihə çərçivəsində mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin Bakı Dövlət Universitetində (BDU) tələbələrlə görüşü keçirildi.

Layihə haqqında məlumat verən mədəniyyət nazirinin birinci müavini vurğuladı ki, mədəniyyətin yaşadılması, nəsildən-nəslə ötürülməsi üçün gənclərin mədəni proseslərdə iştirakı müstəsna əhəmiyyət daşıyır. Azərbaycanda mədəniyyət məhsulu və xidmətlərinin gənclər üçün daha cəlbedici olması, gənclərin mədəni tədbirlərdə iştiraka təşviq edilməsi cəmiyyətin inkişafı üçün çox vacibdir. Gənc nəsli ölkədəki mədəni proseslərdə iştiraka stimullaşdırmaq onlarda incəsənəti duymaq, qiymətləndirmək, sevmək və bədii dəyərlər yaratmaq qabiliyyətini formalaşdırır. Təhsilin mədəni ölçüsünün yaradılması, mədəni tədbirlərdə iştirak edəcək bilikli auditoriyanın formalaşdırılması baxımından bu layihə çox önəmlidir.

Elnur Əliyev diqqətə çatdırdı ki, layihəyə könüllü olaraq 300 nəfər tələbə qatıla bilər. İki ay davam edəcək layihə çərçivəsində tələbələr 5 mədəniyyət ocağında – Azərbaycan Dövlət Akademik Milli Dram, Azərbaycan Dövlət Akademik Opera və Balet, Azərbaycan Dövlət Akademik Musiqili, Azərbaycan Dövlət Akademik Rus Dram teatrlarında və Azərbaycan Dövlət Akademik Filarmoniyasında tamaşa və konsertlərə güzəştli şərtlərlə baxmaq imkanı əldə edəcək. Həmçinin məşhur mədəniyyət xadimləri ilə görüşlərin keçirilməsi planlaşdırılır.

BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru Əliş Ağamirzəyev qeyd etdi ki, təhsil müəssisələrinin vəzifəsi ixtisaslı kadrlarla bərabər, Vətənimizə layiqli övladlar yetişdirməkdir.

**Nurəddin**

# Bəstəkarlar İttifaqında ulu öndərin xatirəsi yad edilib

Mayın 10-da Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan ABİ-nin sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə ümummilli liderin, mədəniyyətin bütün sahələrində olduğu kimi, musiqi sənətinə də hər zaman diqqət və qayğı göstərdiyini vurğulayıb. O, 1979-cu ildə Bəstəkarlar İttifaqının V qurultayında Heydər Əliyevin çıxışını xatırlayaraq onun bəstəkarlara tövsiyələrini diqqətə çatdırdı. Qeyd etdi ki, Heydər Əliyevin həmin çıxışı sonradan nəşr olunaraq bəstəkar və musuqişünasların masaüstü kitabı olub. Ulu öndərin tövsiyələrində musiqi janrlarına geniş yer verilib. Bu da dahi şəxsiyyətin musiqi sənətinə yaxşı bələd olmasının göstəricisi idi.

Firəngiz Əlizadə çıxışında Heydər Əliyev dühasının musiqidə tərənnümündən də bəhs edib. Bildirib ki, bir sıra bəstəkarlarımız dahi şəxsiyyətə əsərlər həsr ediblər və belə əsərlər bundan sonra da yazılacaq.

ABİ-nin katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova ulu öndərə həsr olunan əsərlər haqqında danışıb, bu sırada Arif Məlikovun 8 saylı “Əbədiyyət” simfoniyası, Cövdət Hacıyevin “Onu zaman seçib” simfoniyası, Ramiz Mustafayevin “Atamız Heydər” odası, Vasif Adıgözəlovun “Azərbaycan” kantatası, Tofiq Bakıxanovun “Xatirə” poeması, Firəngiz Əlizadənin “İthaf” əsəri, Sərdar Fərəcovun “Böyük vətəndaş haqqında” odası, Vasif Allahverdiyevin “Ömür yolu” simfonik poeması və digər əsərləri qeyd edib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı “Musiqidə əbədiləşən ömür” mövzusunda çıxış edib, ümummilli liderə həsr olunan əsərlərin musiqişünaslar tərəfindən tədqiq olunması barədə danışıb.

Tədbirdə iştirak edən bəstəkarlardan Əməkdar artistlər Arif Mirzəyevin “Xatirə”, Elza Seyidcahanın “Elegiya” və Əməkdar müəllim Lalə Cəfərovanın “Əbədiyaşar Heydər” əsərləri səslənib.

# Bakı Xoreoqrafiya Akademiyasında “Şuşa İli” tədbirləri başlayıb

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) “Şuşa İli” ilə əlaqədar silsilə tədbirlərə start verilib. Akademiyanın Musiqi sənəti kafedrasının təşkilatçılığı ilə “Azərbaycanın mədəniyyət mirvarisi” adlı tədbir keçirilib.



Tədbirdə BXA-nın Elm və yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elmira Pənahova, Tədris şöbəsinin müdiri, dosent Yeganə Tapdıqova, tam orta təhsil pilləsinin direktoru Bəşarət Hüseynova, kafedra müdirləri, müəllim və tələbə heyəti iştirak edib.

Musiqi sənəti kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əhsən Əhmədov, kafedranın müəllimi Səbinə Əliyeva çıxış ediblər. Azərbaycanın dilbər guşəsi olan Qarabağın tarixi, mədəniyyəti, aşıq və muğam məktəbinin görkəmli nümayəndələri, ədəbi-musiqi məclisləri, tarixi abidələri haqqında söz açılıb.

Videoçarx vasitəsilə Xalq artisti Təranə Muradovanın ifasında təqdim edilən “Uzundərə rəqsi”, BXA-nın bakalavr pilləsinin xalq çalğı alətləri ixtisasının II kurs tələbələrinin (tarda Fuad Süleymanov, kamançada Nihad Məmmədov, nağarada Nizami Mehdizadə) müşayiəti ilə Əhsən Əhmədovun ifasında canlı səslənən “Qarabağ şikəstəsi”, “Rast” muğamından parça və “Şuşanın dağları” mahnı kompozisiyaları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Tədbir kafedranın baş müəllimi Lalə Hüseynlinin, təqdim edilən musiqi kompozisiyaları ixtisas müəllimləri Orxan Zeynalov, Əli Quliyev və Xəyal Abbasovun iştirakı ilə hazırlanıb.

# Oqtay Rəcəbovun yubileyinə həsr olunmuş konsert

Mayın 6-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, pedaqoji elmlər doktoru, professor Oqtay Rəcəbovun 80 illik yubileyinə həsr olunmuş konsert keçirilib.



Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən tədbirdə nazir Anar Kərimovun Oqtay Rəcəbova ünvanlanmış təbrik məktubu diqqətə çatdırılıb.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə və Əməkdar müəllim, elmlər doktoru, professor Vidadi Xəlilov yubilyarın həyat və yaradıcılıq yolu haqqında danışıb, sənətkar haqqında ürək sözlərini bölüşüblər.

Konsert proqramının birinci hissəsində Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor Orxan Həşimov) bəstəkarın “Qarabağ Azərbaycandır!” simfoniyasını, “Yəhudi” mövzusunda rapsodiyasını, “Kamança və orkestr üçün konsert”inin I hissəsini (solist – beynəlxalq müsabiqələr laureatı Mehri Əsədullayeva) səsləndirib.

İkinci hissədə “Buta” instrumental ansamblının (bədii rəhbər Rövşən Qurbanov) müşayiəti ilə solistlər – Xalq artisti Heydər Anatollu, Əməkdar artistlər Almaz Orucova, Gülüstan Əliyeva, solistlər Rəvanə Qurbanova, Rövşən Əziz, Aynur İsgəndərli, Taleh Yəhyayev, Zülfiyyə Məmmədova bəstəkarın “Anam Azərbaycan”, “Necə unudum səni?”, “Zəfəran”, “Daha nə istəyirsən?”, “Faytonçu”, “Sevərsənmi?” və digər sevilən mahnılarını ifa ediblər.

Yubiley axşamında bəstəkarın sənət yoldaşları, musiqi ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

# Mədəniyyət naziri Dünya Abidələr Fondunun direktoru ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov Nyu-Yorkda Dünya Abidələr Fondunun (World Monuments Fund – WMF) direktoru Benedikt de Monlorla görüşüb.




Görüş zamanı nazir Azərbaycanın multikultural özəlliyindən, zəngin tarixindən bəhs edib. Həmçinin 2021-ci ildə ölkəmiz tərəfindən irəli sürülmüş “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal təşəbbüsünün daşıdığı sülhpərvər missiya haqqında məlumat verilib. Anar Kərimov bildirib ki, BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, İCESCO və digər beynəlxalq təşkilatlar bu təşəbbüsə dəstəklərini ifadə ediblər. Nazir mayın 4-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinosla “Mədəniyyət naminə sülh” qlobal çağırışının mütəşəkkil fəaliyyət planının imzalandığını da diqqətə çatdırıb.

Qeyd olunub ki, mədəni irsin bərpası və yenidən qurulması fəaliyyət planının əsas məsələləri sırasında yer alıb. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində qarşımızda duran başlıca vəzifə də bu istiqamətdə fəaliyyət olacaq. Nazir bu xüsusda Dünya Abidələr Fondu ilə bir sıra proqram və layihələrdə əməkdaşlıq etmək təşəbbüsünü də irəli sürüb.

Benedikt de Monlor 1965-ci ildən fəaliyyət göstərən Dünya Abidələr Fondu haqqında məlumat verib. Bildirib ki, ötən müddətdə 800-dən çox layihə həyata keçirilib. Fondun önəmli fəaliyyət istiqamətlərindən biri İraq, Suriya kimi postmünaqişə dövründə olan ölkələrin ərazisində dağıdılıb məhv edilmiş mədəni abidələrin bərpasıdır.

Görüş zamanı Mədəni İrsin Qoruması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa işləri haqqında ətraflı məlumat verib. Bu ərazilərdə qeydə alınan dağıdılmış abidələr barədə də statistikanın aparıldığı və həmin abidələrin qeydiyyata alındığı diqqətə çatdırılıb.

# Azərbaycanın təşəbbüskarı olduğu çağırış bütün dünyaya ünvanlanıb

## Mədəniyyət nazirinin BMT-də görüşləri

Mədəniyyət naziri Anar Kərimov Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 76-cı sessiyasının sədri Abdullah Şahidlə görüşüb.

Anar Kərimov mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli dialoqun qurulması məqsədilə 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən “Bakı Prosesi” təşəbbüsü və onun əsasında formalaşan qlobal hərəkatdan bəhs edib. Vurğulayıb ki, Azərbaycanın mədəniyyətlərarası dialoq təşəbbüsü və bu qəbildən beynəlxalq layihələrə ev sahibliyi etməsinin əsas səbəbi tarixən ölkəmizdə fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların yaşaması və zəngin mədəni müxtəlifliyin təşəkkül tapmasıdır.

BMT Baş Assambleyasının sədrinə həmçinin Azərbaycanın təşəbbüskarı olduğu yeni qlobal çağırış – postmünaqişə dövrlərində mədəniyyətlərarası və dinlərarası dialoqun, mədəni və dini irsin qorunmasına xidmət edəcək “Mədəniyyət naminə sülh” (Peace4Culture) layihəsinin fəaliyyət planı haqqında da məlumat verilib.

Görüş qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələrlə davam edib.

***

Anar Kərimov səfər zamanı Pakistanın BMT-dəki daimi nümayəndəsi Munir Əkrəmlə də görüşüb.

Nazir Azərbaycanda həyata keçirilən beynəlxalq layihələr barədə M.Əkrəmə məlumat verib. A.Kərimov iki dost ölkə arasında mədəni irsin qorunması və təbliğinə xidmət edəcək əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

M.Əkrəm bildirib ki, Pakistan Azərbaycanla dostluq əlaqələrinin daha da gücləndirilməsi üçün ölkəmizdə keçirilən mədəni layihələrə töhfə verməyə hazırdır. Pakistanın BMT-dəki daimi nümayəndəsi ölkəsinin Azərbaycan tərəfindən irəli sürülən “Mədəniyyət naminə sülh” (Peace4Culture) təşəbbüsünü də dəstəklədiyini və bu layihənin beşillik fəaliyyət planında fəal rol oynayacağını deyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair müzakirələr aparılıb.

# Ümummilli liderə ithaf

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Lənkəran Dövlət Dram Teatrı və Həzi Aslanov adına 3 saylı Lənkəran şəhər tam orta məktəbinin birgə təşkilatçılığı ilə tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan teatrın direktoru Tofiq Heydərov ulu öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri, elmə, təhsilə, mədəniyyətə verdiyi töhfələr barədə danşıb.

Lənkəran-Astara Regional Təhsil İdarəsinin sektor müdiri Ülviyyə Əliyeva, Həzi Aslanov adına 3 saylı Lənkəran şəhər tam orta məktəbin direktoru Aqil Sadiyev və digər çıxış edənlər Heydər Əliyevin müasir Azərbaycan dövlətçilik ənənələrinin formalaşmasında rolundan bəhs ediblər.

Tədbirdə teatrın və orta məktəbin birgə layihəsi əsasında şagirdlərin ifasında ulu öndərin əziz xatirəsinə ithaf edilmiş ədəbi-bədii kompozisiya və Cəlil Məmmədquluzadənin “Çay dəsgahı” alleqorik tamaşası (ideya müəllifləri Tofiq Heydərov və Aqil Sadiyev, quruluşçu rejissoru Günel Hüseynova) nümayiş etdirilib.

# İrsi tarixdə, xatirəsi qəlblərdə yaşayan dahi



Bölgələrdəki mədəniyyət müəssisələrində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilib.

Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) Şirvan şəhər MKS, Şirvan Dövlət Rəsm Qalereyası və şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ulu öndərin anadan olmasının 99-ci ildönümünə həsr olunmuş rəsm-foto və kitab sərgisi keçirilib.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzi, rayon Tarix-Diyarşünaslıq Muzeyi, YAP Hacıqabul rayon təşkilatı, rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Böyük şəxsiyyət" adlı şeir qiraəti müsabiqəsi, "Böyük azərbaycanlı" mövzusunda təqdimat müsabiqəsi və rayon gəncləri arasında voleybol üzrə şəhər birinciliyi keçirilib. Müsabiqə və yarışlarda ilk üç yeri tutanlara diplom və hədiyyələr təqdim olunub.

***

Biləsuvar RMİ Neftçala rayon Heydər Əliyev Mərkəzində ulu öndərin anadan olmasının 99-cu ildönümü münasibətilə "İki əsrin körpüsü" adlı sərgi-tədbir təşkil edilib.

***

Masallı RMİ, Masallı Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə Nizami Gəncəvi adına rayon Mədəniyyət Mərkəzində "Bizi tərk eləmir xatirələrin" adlı ədəbi-bədii kompozisiya təqdim edilib. Masallı rayon Mərkəzi Kitabxanasında isə "Müasir Azərbaycanın qurucusu – Heydər Əliyev" mövzusunda tədbir keçirilib.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "İrsi tarixlərdə, özü ürəklərdə yaşayan insan" adlı tədbirdə MKS-nin direktor müavini Natəvan Axundzadə çıxış edib. Sumqayıt şəhər Mədəniyyət evi isə "Dahi şəxsiyyət" adlı ədəbi-bədii gecə keçirib. Mədəniyyət evinin gənc müğənniləri ulu öndərə həsr olunan mahnılar ifa ediblər.

***

Ağdaş RMİ Ağdaş rayon Mərkəzi Kitabxanasında "Müstəqil Azərbaycanın banisi" adlı tədbir keçirilib. Ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən "Azərbaycanın özü qədər əbədi lideri" adlı videoçarx və "Heydər Əliyev – 99" adlı sərgi nümayiş olunub.

***

İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev Mərkəzi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə yeniyetmə və gənclər arasında "Heydər Əliyev və çağdaş Azərbaycan" adlı rəsm müsabiqəsi keçirilib. Almarə İsgəndərova I, Nuray Babayeva II, Asim Osmanlı III yerə layiq görülüblər.

Şamaxı rayon Heydər Əliyev Mərkəzi və Türkiyənin Qars Qafqaz Universitetinin birgə təşkilatçılığı ilə "Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim" mövzusunda videokonfrans keçirilib. Konfransda Heydər Əliyev Mərkəzinin direktoru Könül Eyvazova, Azərbaycanın Qars şəhərindəki baş konsulu Nuru Quliyev, Qars Qafqaz Universiteti rektorunun müavini, professor Engin Kılıç, Milli Məclisin deputatı Tamam Cəfərova və digərləri çıxış ediblər.










Ağsu rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə ulu öndərin adını daşıyan parkda Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən məktəblilərin əl işlərindən ibarət sərgi keçirilib.

***

Kürdəmir RMİ Kürdəmir Dövlət Rəsm Qalereyasında Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə sərgi təşkil edilib.

Füzuli rayon Heydər Əliyev Mərkəzində isə "Müstəqil Azərbaycanın memarı" adlı tədbir təşkil olunub. Tədbir iştirakçıları ulu öndərin həyat və fəaliyyətindən bəhs edən "Dahi şəxsiyyət" filmini izləyiblər.

***

Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən "Müstəqil Azərbaycan" mövzusunda tədbirdə gənclərin fikirləri dinlənilib.

Ağcabədi Dövlət Rəsm Qalereyasında "Azərbaycanın əbədi günəşi" başlıqlı sərgi təşkil edilib.

***

Şəmkir RMİ Daşkəsən rayon Heydər Əliyev Mərkəzində ulu öndərin anadan olmasının 99-cu ildönümü münasibətilə intellektual yarış keçirilib. Yarışda "Şuşa", "Zəfər", "Uğur", "A.Mürsəlov", "Brainstorms" komandaları iştirak ediblər. "Uğur" komandası qalib olub.

***

Bərdə RMİ Tərtər rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və regional idarənin Tərtər rayonu üzrə nümayəndəsi Ceyhun İsmayılzadə çıxış ediblər. Sonra fləşmob, ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx təqdim olunub.

***

Ağstafa RMİ Ağstafa rayon Heydər Əliyev Mərkəzində "Milli-mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib. Çıxış edənlər ulu öndərin şərəfli ömür yolundan, Vətənimiz qarşısında tarixi xidmətlərindən danışıblar.

Ağstafa Dövlət Rəsm Qalereyası 2 saylı uşaq bağçasında "Sən elə bir zirvəsən..." adlı səyyar sərgi təşkil edib.

Tovuz rayon MKS-nin təşkilatçılığı ilə keçirilən "Müstəqil Azərbaycanın qurucusu" mövzusunda tədbirdə ulu öndərə həsr olunmuş şeirlər səsləndirilib.

Qazax rayon MKS-nin təşkilatçılığı ilə "Bir adın var: fövqəlbəşər!" adlı ədəbi kompozisiya keçirilib.

***

Gəncə RMİ-nin təşəbbüsü, Gəncə şəhər Uşaq incəsənət məktəbinin təşkilatçılığı ilə Gəncə Dövlət Dram Teatrında Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. Gəncə RMİ-nin rəisi Vasif Cənnətov və Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürkün də iştirak etdiyi tədbirdə Gəncə şəhər Uşaq incəsənət məktəbinin kollektivi tərəfindən musiqi nömrələri təqdim edilib.

Gəncə şəhər Uşaq incəsənət məktəbində viktorina keçirilib. Yarışmada "Qarabağ", "Şuşa", "Laçın" və "Zəfər" komandaları iştirak ediblər. 4 nömrəli Uşaq musiqi məktəbində keçirilən tədbirdə isə Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib.

## Qarabağın əzəmətli zirvəsi

Yerlərdəki mədəniyyət müəssisələrində "Şuşa İli"nin tədbirləri davam edir. Sumqayıt RMİ Abşeron rayon Mədəniyyət Mərkəzində Xırdalan şəhər onbirillik Musiqi məktəbinin təşəbbüsü ilə "Əziz Şuşa, sən azadsan!" adlı tədbir keçirilib. Tədbirdə məktəbin istedadlı yetirmələri tərəfindən bir-birindən maraqlı kompozisiyalar təqdim olunub.

***



Şəki RMİ M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində "Şuşa Qarabağın əzəmətli zirvəsi" adlı teatrlaşdırılmış kompozisiya təqdim olunub. Kompozisiyada S.Vurğunun "Vaqif", N.Vəzirovun "Daldan atılan daş topuğa dəyər", Ə.Haqverdiyevin "Dağılan tifaq" pyeslərindən, Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından parçalar nümayiş etdirilib. Rolları Rəşad Rüstəmov, Sələmə Məhərrəmova, Şöhrət İbrahimxəlilov, Cavidan Əlizadə və başqaları ifa ediblər. Tədbirdə həmçinin Q.Zakir və X.Natəvanın qəzəlləri ifa olunub, "Uzun ömrün akkordları" (Üzeyir Hacıbəyli haqqında) bədii filmindən fraqmentlər göstərilib, "Azərbaycanım" saz havası səsləndirilib, Şuşanın görüntüləri nümayiş etdirilib.

***

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası və YAP Quba rayon təşkilatının birgə təşkilatçılığı ilə "Qarabağımızın incisi, mədəniyyətimizin beşiyi – Şuşa" adlı tədbir keçirilib. Tədbirdə "Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır" adlı sərgiyə baxış olub.

***



Lənkəran RMİ-nin təşkilatçılığı ilə Lənkəran şəhər Mədəniyyət Mərkəzində C.Cabbarlı adına 1 nömrəli Uşaq musiqi məktəbinin müəllim və şagird kollektivinin hazırladığı "Əziz Şuşa, sən azadsan!" adlı musiqi proqramı təşkil olunub. RMİ-nin rəisi Şahin Şahbazovun çıxışından sonra bədii hissəyə keçilib. Musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında vətənpərvər ruhlu xalq və bəstəkar mahnıları, şeirlər səsləndirilib. Şagirdlər Dədə Qorqudun dilindən "Şuşanın tarixi" adlı səhnəcik təqdim ediblər.

## "Rənglənmiş tarix" Şamaxı və Gəncədə

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Uşaq və Yeniyetmələrə Dəstək" İctimai Birliyi tərəfindən həyata keçirilən "Rənglənmiş tarix" layihəsinin növbəti sərgiləri Şamaxı və Gəncə şəhərlərində təşkil edilib.

İsmayıllı RMİ-nin əhatə etdiyi Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzində açılan sərgidə Şuşadan olan bir sıra görkəmli musiqi xadimlərinin fotoları nümayiş olunub.

Gəncə Dövlət Filarmoniyasında təşkil olunan fotosərgidə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov iştirak ediblər. Sərgidə Üzeyir Hacıbəyli, Bülbül, Cabbar Qaryağdıoğlu, maestro Niyazi, Ceyhun Hacıbəyli, Fikrət Əmirov, Xan Şuşinski, Rəşid Behbudov, Seyid Şuşinski, Soltan Hacıbəyli, Süleyman Ələsgərov kimi musiqiçilərin ağ-qara fotoları rəqəmsal üsullarla rənglənmiş versiyada nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# Dünyanın dad və ləzzətləri mədəniyyət paytaxtımızda

### Şuşa Beynəlxalq Kulinariya Festivalında 12 ölkə təmsil olunub

Xəbər verdiyimiz kimi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa 5-8 may tarixində kulinariya festivalına ev sahibliyi edib. Şuşa Beynəlxalq Kulinariya Festivalında 11 ölkənin və Azərbaycanın 11 iqtisadi rayonunun mətbəx nümunələri nümayiş olunub.

Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə keçirilən festivalda Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan kulinarlar qonaqları ölkələrinin təamları ilə tanış edib. Tədbirə Belçika, Çexiya, Fransa, İtaliya, İsrail, Kanada, Koreya Respublikası, Qazaxıstan, Özbəkistan, Rusiya və Türkiyədən qida sahəsi üzrə ekspertlər, blogerlər də qatılıb. Qonaqlar peşəkar aşpazların ustad dərslərində iştirak etmək imkanı da qazanıblar.

Kulinariya festivalında Azərbaycanın Abşeron-Xızı, Bakı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Lənkəran-Astara, Mərkəzi Aran, Naxçıvan, Qarabağ, Quba-Xaçmaz, Şəki-Zaqatala və digər iqtisadi rayonları təmsil olunur.








Festival zamanı Şuşada təkcə dünya xalqlarının təamları deyil, mədəni irs nümunələri də təqdim edilib. Hər pavilyon qonaqları həmin ölkəyə xas musiqi ilə salamlayıb. İştirakçı ölkələrin mədəniyyətlərinə aid personajlar qonaqları maraqlı nömrələrlə əyləndiriblər. Festival günlərində incəsənət ustalarının iştirakı ilə bədii proqram təqdim edilib, istirahət və əyləncə zonasındakı pavilyonlarda səhnəciklər, konsert və sərgilər təşkil olunub.

Kulinariya festivalının son günündə Azərbaycanın milli musiqiləri səsləndirilib, yerli tamaşa və filmlərdən parçalar təqdim edilib. Festival iştirakçıların Azərbaycanın milli rəqsi – "Yallı" sədaları altında rəqsi ilə yekunlaşıb.

## Həftənin yeddi günü Şuşaya səfər var




Dövlət Avtomobil Nəqliyyatı Xidməti Şuşaya təşkil olunan avtobus səfərləri ilə bağlı yayılan xəbərlərə dair açıqlama yayıb.

Xidmətin məlumatında vurğulanır ki, Şuşa üçün biletləri kimlərinsə alması və daha sonra digər şəxslərə satması və ya ötürməsi mümkün deyil. Çünki vətəndaşlar bilet almaq üçün şəxsiyyətini təsdiq edən sənəddəki məlumatları sistemə daxil etməlidirlər. Hər bilet yalnız şəxsiyyət vəsiqəsi ilə eyniləşdirilən vətəndaş tərəfindən istifadə oluna bilər. Bilet sistemi müvafiq dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya edilib və sərnişinlərə biletlə birlikdə işğaldan azad olunmuş ərazilərə giriş icazəsi də verilir. Bu icazə yalnız bilet almış şəxs üçün keçərlidir və ötürülməsi mümkün deyil.

Dövlət Avtomobil Nəqliyyatı Xidməti vətəndaşlara tövsiyə edir ki, belə elanları ciddi qəbul etməsinlər, biletlərin alınmasını heç kimə əlavə vəsait ödəmədən özləri həyata keçirsinlər. Vətəndaşlar qanunsuz bilet satışı halları ilə rastlaşarlarsa, bu barədə office@danx.gov.az elektron poçt ünvanı, www.facebook.com/AzDANX sosial səhifəsi və ya (+99412) 566 52 58 telefon nömrəsi vasitəsilə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə məlumat vermələri xahiş olunur.

Qeyd edək ki, may ayından etibarən Bakı-Şuşa-Bakı istiqamətində həftədə 4 dəfə (cümə axşamı, cümə, şənbə və bazar günləri) reyslər həyata keçirilir. Əhmədbəyli-Şuşa-Əhmədbəyli istiqamətində isə həftənin 3 günü (bazar ertəsi, çərşənbə axşamı, çərşənbə günləri) səfər etmək mümkündür.

Beləliklə, həftənin bütün günləri Şuşa istiqamətində reyslər həyata keçirilir. Marşrut xətləri üzrə bilet satışı yalnız www.yolumuzqarabaga.az portalı üzərindən onlayn qaydada həyata keçirilir.

## Sabirabadda "Təmiz heykəl" aksiyası



Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə bir müddət əvvəl paytaxtda başlanan "Təmiz heykəl" layihəsi bölgələrdə də davam edir.

Layihə çərçivəsində mayın 6-da Sabirabad Rayon İcra Hakimiyyəti və Sabirabad Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirin rayon mərkəzində yerləşən heykəli yuyulub. Abidənin ətrafında təmizlik, abadlıq işləri görülüb.

# Ustad tarzənin 75 illiyi qeyd olundu



Görkəmli tarzən, Xalq artisti, Dövlət mükafatı laureatı, professor Ramiz Quliyevin anadan olmasının 75 və elmi-pedaqoji fəaliyyətinin 55 illiyi mayın 6-da Beynəlxalq Muğam Mərkəzində təntənəli mərasimlə qeyd edildi.

Yubiley axşamında Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) rektoru, Xalq artisti Fərhad Bədəlbəyli çıxış edərək Ramiz Quliyevin musiqi sənətimizə verdiyi töhfələrdən söz açdı. Bildirdi ki, yubilyarla birlikdə müxtəlif ölkələrdə qastrol səfərlərində olub, konsertlərdə çıxış ediblər.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev tarzənin elmi-pedaqoji fəaliyyətindən, gənc ifaçıların yetişməsində böyük zəhmətindən bəhs etdi.

Yubilyarı təbrik edən akademik, millət vəkili Ziya Səmədzadə dedi: "Ramiz Quliyev ifaçılıq fəaliyyətində hər zaman qarşısında duran ali məqsədin həyata keçirilməsinə – milli xarakterlərin və ruhun mümkün qədər düzgün, aydın və geniş təcəssüm etdirilməsinə, tarın bütün xəlqi və beynəlxalq keyfiyyətləri ilə tanıdılmasına yönəldib".

Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə, Xalq artisti Mənsum İbrahimov, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı da yubilyara təbriklərini çatdırdılar.

Qeyd edildi ki, ifaçılığa yenilik gətirmək, sənətdə özünəməxsus iz qoymaq və yeni yaradıcılıq yolları axtarıb tapmaq istəyi Ramiz Quliyevin böyük amalı, həyat kredosu olub. O, çalışır ki, ürəyinin başında əzizlədiyi sədəfli tarı həmişə orkestr kimi əzəmətlə səslənsin, qəlbləri riqqətə gətirsin. Muğamları və bəstəkar əsərlərini yüksək ustalıqla geniş dinləyici kütləsinə çatdırması onun professionallığının göstəricisidir.

Yubilyarı təbrik üçün İsraildən Bakıya gələn musiqişünas Duşan Mixalek ilk dəfə Ramiz Quliyevin ifasını 1987-ci ildə Səmərqənddə dinlədiyini və həmin gündən də Azərbaycan tarına, onun sənətinə vurğun olduğunu dedi.

Tarzənin oğlu, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyev çıxış edərək tədbirin təşkilatçılarına təşəkkür etdi, sənətə gəlməsində atasının əməyindən söz açdı.

Çıxışlardan sonra tarzənin həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş olundu.

Sonda Ramiz Quliyev çıxış edərək tədbirin təşkilatçılarına təşəkkür etdi. Bundan əvvəlki yubileylərini ana yurdu Ağdamsız keçirdiyini, bu gün isə həyatında ikiqat bayram olduğunu vurğulayan yubilyar Ali Baş Komandan İlham Əliyevə və şanlı Ordumuza minnətdarlığını ifadə etdi, şəhidlərimizə Allahdan rəhmət dilədi.

**Lalə**

# Reklam istehsalçılarının "gənc aslanlar"ı

## "Young Lions Azerbaijan – 2022" müsabiqəsinin qalibləri elan edildi

Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən "Young Lions Azerbaijan – 2022" müsabiqəsi başa çatıb. Mayın 7-də Nizami Kino Mərkəzində müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi gerçəkləşdi.






Mükafatlandırmadan əvvəl "TEDx" formatında yerli və xarici spikerlər çıxış etdilər.

Mərasimdə çıxış edən Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Ramil Abbəkirov qeyd etdi ki, yaradıcılığın dəstəklənməsi Mədəniyyət Nazirliyinin başlıca məqsədlərindən biridir: "Bildiyiniz kimi, bu il ölkəmizdə "Şuşa İli"dir. Şuşa həm də mədəniyyət paytaxtımızdır. Buna görə də iştirakçı komandalara mədəniyyətlə əlaqəli mövzular seçdik...".

Müsabiqənin "Çap" kateqoriyası üzrə mövzusu – "Mədəniyyət naminə sülh" barədə söz açan şöbə müdiri bunun böyük konsepsiyaya malik bir anlayış olduğunu bildirdi. Diqqətə çatdırdı ki, ötən il Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" qlobal çağırışı bir sıra beynəlxalq təşkilatlar tərəfindən dəstəklənib. Bu günlərdə Nyu-Yorkda, BMT-nin qərargahında təşkilatın Sivilizasiyalar Alyansının ali nümayəndəsi və Azərbaycanın mədəniyyət naziri tərəfindən "Mədəniyyət naminə sülh" qlobal çağırışının mütəşəkkil fəaliyyət planı imzalanıb.

Şöbə müdiri "Videoçarx" (Film) kateqoriyası üçün seçilən "İnsanların mədəniyyət müəssisələrinə mütəmadi ziyarətinin təşviq edilməsi" mövzusunun da aktuallığından bəhs etdi. Bildirdi ki, mədəniyyət müəssisələrinin potensialı böyük olsa da, insanların həmin məkanlara cəlb olunması üçün təşviqata ehtiyac duyulur.

Mərasimdə çıxış edən Azərbaycan Yaradıcı Sənayelər Federasiyası İdarə heyətinin sədri Vasif Eyvazzadə bildirdi ki, bu gün burada duyğuların, gözlərin və zəkanın sərhədsiz bir atmosferinə toplaşmışıq. Sizlər hamının gördüyü, lakin tam dərk edə bilmədiyi bir dünyanı təqdim edirsiniz.

Kateqoriyalardakı mövzulara toxunan V.Eyvazzadə vurğuladı ki, sülh insan yaradıcılığına, mədəniyyətin qorunması və inkişafına töhfə verən vacib bir anlayışdır. O, çıxışının sonunda müsabiqə iştirakçılarını təbrik edərək, onlara uğurlar arzuladı.

Çıxışlardan sonra qaliblərin adları açıqlandı.

"Çap" kateqoriyası üzrə Xəyal Mahmudlu və Xədicə Məmmədli I, Ramin Zaidov və Camal Kamallədin II, Şahin Əliyev və Gültəkin Muradova III yerləri qazandılar.

"Videoçarx" kateqoriyası üzrə Namiq Bayramov və Nicat Məmmədzadə I, Ayxan Xəlilov və Maral Mustafayeva II, Səbinə Rüstəmli və Bəhruz Qurbanlı isə III yerlərə layiq görüldülər.

Qaliblər medallar və sertifikatlarla təltif edildilər. Hər kateqoriya üzrə I yeri tutan komandalar Fransanın Kann şəhərində baş tutacaq "Young Lions Competitions – 2022" ("Gənc aslanların müsabiqəsi") finalında iştirak etmək hüququ qazandılar.

Xatırladaq ki, müsabiqədə iki kateqoriya üzrə ümumilikdə 103 komanda ("Çap" – 73, "Videoçarx" – 30) iştirak edib. 30 yaşadək yaradıcı şəxslərin qatıldığı müsabiqədə qeydiyyatdan keçən iştirakçılara müsabiqə təşkilatçıları tərəfindən 16 aprel tarixində təlimatlar göndərilib, "Çap" kateqoriyası üçün 24 saat, "Videoçarx" üçün isə 72 saat ərzində yaradıcı məhsul hazırlamaları tələb olunub. İştirakçıların işləri beynəlxalq münsiflər heyəti tərəfindən dəyərləndirilib.

Reklam istehsalçılarının ən nüfuzlu beynəlxalq festivalı hesab olunan "Cannes Lions" ("Kann aslanları") 1954-cü ildən bəri hər il Fransanın Kann şəhərində keçirilir. Bu festivalın gənc reklam mütəxəssisləri üçün nəzərdə tutulan "Young Lions" ("Gənc aslanlar") adlı müsabiqəsi isə 1995-ci ildən təşkil olunur. Ölkəmizdə "Young Lions" müsabiqəsi ikinci dəfədir gerçəkləşir.

**Nurəddin**

# Xıdır Nəbi bayramına həsr olunan festival

Paytaxtın Xəzər rayonunun Buzovna qəsəbəsindəki Ruhulla Axundov adına Mədəniyyət evində "Xıdır Nəbi" folklor festivalı keçirilib. Mayın 6-da gerçəkləşən "Multikulturalizm Buzovna məkanında" başlıqlı festivalın məqsədi qədim Xıdır Nəbi bayramını yenidən insanlara xatırlatmaq və bu vasitə ilə müxtəlif türk xalqlarının mədəniyyətini bir məkanda nümayiş etdirmək olub.



Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin qazısı, yazar Soltan Əlizadə, Yazıçılar Birliyi Xəzər bölməsinin sədri, şair Arif Buzovnalı, Türkiyənin Azərbaycandakı Səfirliyinin nümayəndəsi Nurettin Erdoğan, Tatarıstanın (Rusiya Federasiyası) ölkəmizdəki daimi nümayəndəliyinin əməkdaşı Elmira Yusifli və digər qonaqlar, 125, 234 nömrəli orta məktəblərin və 4 nömrəli Uşaq incəsənət məktəbinin şagirdləri, ictimaiyyət nümayəndələri iştirak edib.

Əvvəlcə Mədəniyyət evinin foyesində türk xalqlarının milli mətbəxləri və əl sənətkarlığı nümunələrindən ibarət sərgiyə baxış keçirilib.

Zalda davam edən tədbirdə Xıdır Nəbi bayramına həsr olunmuş səhnəcik təqdim olunub. AYB Xəzər bölməsindən gənc şairlər Təhirə Bərraq, Kamal Hüseynzadə və Nicat Nəsri mövzuya uyğun yazdıqları şeirlərini söyləyiblər. Bir-birindən gözəl mahnılar və rəngarəng rəqslər, "Adıgün" türk folklor kollektivinin üzvləri Cavad Mahmudov (zurna) və Nüsreddin Bayazov (davul) tərəfindən musiqi nömrələri ifa edilib.

Mədəniyyət evinin direktoru Afət İbrahimova, bədii rəhbəri Aynurə Osedova, metodist Natəvan Hüseynova, mədəni-kütləvi tədbirlərin təşkilatçısı Elşən Məmmədov və bütün kollektivin fəal iştirakı ilə ərsəyə gələn festival qonaqlara zəngin təəssürat bəxş edib.

# Özünü "Psix"liyə vurma!...

## Yaxud bir Don Kixot bəs edir



Elə də uzaq tarixin söhbəti deyil. 2010-cu ilin mayı idi. Qaranəfəs özümü Yuğ Teatrına yetirdim. Məşq izləyəcək, ardınca da müsahibə edəcəkdim. Yuğçuların ustad hesab etdiyi (məncə, o, bütün zamanlar üçün o statusunda qalacaq) teatrın bədii rəhbəri, hazırlanacaq yeni tamaşanın quruluşçusu Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu ilə.

Teatrın o vaxtkı binasına daxil olan kimi qulağım bir səs aldı: "Dörd aydır danışırıq, indi işləyək...". Vaqif müəllim gənc aktyorları və tələbələri başına yığıb Migel de Servantesin "Don Kixot" əsəri əsasında səhnələşdirilmiş "Psix" tamaşasının məşqini edirdi.

Zalda mistik bir ovqat, qəribə bir tərtibat vardı. Müsəlləh əsgər kimi rejissorun qızı da yanda yerini almışdı. Tamaşanın quruluşçu rəssamı Umay Həsənova. Əsas rollarda da Hikmət Rəhimov, Toğrul Kamalov (tələbə), İlahə Həsənova, Ruqiyyə Heydərova (dublyor) oynayırdılar. Daha doğrusu, məşq edirdilər.

Uzun çəkən – təxminən üç saat sürən gərgin məşqi yarıqaranlıq zalda sonadək dərin maraqla izlədim...

Budur, il olub 2022 və mən yenidən "Psix" ilə üz-üzə dayanmışam. Bu dəfə həmin tamaşada oynayan Toğrulun, indi Ər-Toğrulun quruluşçu təqdimatı ilə. Şaşırdımmı? Bir az. Çünki 22 il əvvəl məşqini gördüyüm səhnə əsərini yenidən (tərtibat xüsusiyyətlərindən musiqi həllinədək) gördüm. Düzü, bu məni həm də sevindirdi. Düşündüm ki, sağ olsunlar, ustadı unutmayıb və vaxtilə birgə işlədikləri tamaşasını uzunömürlü və fərqli etməyə çalışıblar. Amma tamaşa barədə mətbuat üçün yayılan məlumatda bu barədə qeydə rast gəlməyəndə təəssüfləndim. Axı, nə Vaqif müəllimin ölümündən onilliklər keçib, nə də onun quruluş verdiyi tamaşanın məşqini izləyənlərin yaddaşı itib...

Keçək ustad-tələbənin, dünən ilə bu günün, yaşlı nəsil ilə gəncliyin ortaq fəlsəfə və estetikasında ərsəyə gələn yepyeni "Psix"ə.

Təəssüratımdan əvvəl onu da deyim ki, Akademik Musiqili Teatrın xüsusən son zamanlar təqdim etdiyi eksperimentlər (bir sıra məqamlarda mübahisəli olsa da) ümumilikdə maraqlı, cəsarətli və rəngarəngdir. Bu premyeranı da o siyahıya daxil etmək olar.

Beləliklə, aprelin 29-da Akademik Musiqili Teatrın səhnəsində Migel de Servantesin "Ağıllı zadəgan Don Kixot" romanı əsasında hazırlanan "Psix" adlı birhissəli cəngavərlik oyununun premyerası oldu. Yuxarıda da dediyim kimi, tamaşanın rejissoru Ər-Toğrul Kamalovdur.

Müəyyən çalarlarına görə tamaşadan çox performans təsiri bağışlayan (əslində, bizim səhnəyə indi daha çox bu lazımdır) səhnə işi 18 yaşından yuxarı tamaşaçılar üçün nəzərdə tutulub. Tamaşanın musiqisində dahi bəstəkar Qara Qarayevin "Don Kixot" simfonik qravürlərindən istifadə edilib. Tamaşanın bədii rəhbəri teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, musiqi rəhbəri Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhimdir.

Don Kixot obrazını Xalq artisti Pərviz Məmmədrzayev ifa edir. Teatrın gənc və istedadlı aktyorları Nicat Əli Sanço Pansa, Gültac Əlili Dulsineya, Zaur Əliyev Xidmətçi obrazlarında teatrsevərlərin qarşısına çıxırlar.

Məlum hekayətin daha çox subliminal (şüuraltı) mesajlarla pərdələndiyi birsaatlıq tamaşada biz personajların fərqli təqdimatlarında, əslində, özümüzə, ruh halımıza baxdıq. Divanəliyimizə güldük, saflığımıza sevindik, axmaqlığımıza təəssüfləndik, günahsızlığımıza sızladıq, xudbinliyimizə ürpəndik. Uzun sözün qısası, özümüz özümüzə xeyli tamaşa elədik. Gah dözüb, baxdıq, gah da tərk edib getdik (zaldan çıxan 10-15 nəfər) özümüzü aldatmağa. Amma hər halımız ilə bizi özümüz ilə baş-başa buraxmaq istəyən "Psix" çox da uzağa getmədən istəyinə nail oldu.

Tamaşada yuğ estetikası, sözsüz ki, İbrahimoğlu üslubu hakim idi. Buna müasir dünya teatrında geniş yayılan, bizə görə cəsarətli, onlara görə statik gedişləri də qatsaq, ümumi planda üfüqün qızartısını görə bildik. Əlalxüsus da 18+ elementlər (əslində, başqa teatrda gördüyüm iki yeni tamaşa da "18+"li idi və sağ olsunlar, bunu afişada qeyd etməyə lüzum görməmişdilər), bir az da o yana getsəm, personajların özlərini əldən salanadək etdikləri çılğınlıqlar itələyici həddə deyildi.



Rejissorun kolorit verdiyi, atalar sözü, şifahi xalq ritorikası (Vaqif müəllim bunu müxtəlif ləhcələrlə daha da azərbaycansayağı etmişdi) ilə "rənglədiyi" cəngavərinin təhtəlşüuri işarələri maraqlı və dözümlü idi. Dözümlü demişkən, bunu deməsəm, dilim göynəyər. Son zamanlar, xüsusən pandemiyadan sonrakı premyeralarda ifadələr və jestlərdə jarqonlar, ifrat iyrənc işarəli (göstərməli) söyüşbazlıq baş alıb gedir. Anlayıram, pandemiya dövrü və bu zaman içində keçirilən (yaxud oynanılan) yaradıcı "katarsis"ləriniz söyüşlü ola bilər. Amma səhnə başqa mətləblər ilə fikri diktə edir və söyüş yeri deyil...

Hə, onu deyirdim axı, tamaşa bir az psixoloq dinləməsinə, psixoterapevtik akta, müayinə-müşayiətə də bənzəyirdi. Qarşılıqlı olaraq hər kəs psixoloji nəbzini yoxlayırdı. Elə səhnədəkilər də bir-birinin.

Bilmirəm, bəlkə rejissor bunu özü belə qurmuşdu. Amma yaxşı düşünmüşdü. Heç bir obraza "gəl çıx yuxarı başa" ixtiyarını verməmişdi. Sadəcə, "meydan sənindi, görüm nə edirsən" var idi. Bir də aktyor ilə obrazı arasındakı rabitəyə nəzərəçarpacaq detallar ilə bacardıqca onun faciəsinə, daha doğrusu, gülünc iradə nümayişinə diqqət kəsildik.

Rejissor tamaşanın ilk dəqiqələrindən bizi olacaqlardan hali etdi. Buna tərtibat mükəmməlliyi də demək olar və mənə görə, quruluşçu rəssamın məsələyə daha çox nüfuzu aydın sezildi. Sözsüz ki, Vüsal Rəhimin istedadı, maraqlı yozumu, bir az da Don Kixotluğu bu tamaşanın uğur açarı, mən deyərdim ki, şansıdır.

Quruluşçu rejissor həm də səhnələşdirmə müəllifi olaraq bizə günümüzün Don Kixotunu, əslində, 2022-ci ilin cəngavərlik arzularını göstərdi. Onun sırf zəmanə adamlarının cəfəngiyat, xəyalpərəstlik, başqa məqamlarda axmaqlıq dediyi xilaskarlıq missiyasına əl bulaşdırması və bu əsrə çarəsizlikdən düşən Don Kixotlara sahib çıxması, onlara bəraəti aydın (bəzən ifrat detallarda) görünürdü.

Biz istəsək də, onun gülünc qəhrəmanlarına – əndamı əndazədən çıxmış Dulsineyasına, özündən başqa heç kimi dolaya bilməyən Sanço Pansasına, işindən fələk də baş açmayan Xidmətçisinə gülə, qəzəblənə, bağlana bilmirdik. Bizim üçün əvvəldən bu dünyanın adamı olmayan Don Kixot vacib idi və vizual pərakəndəlik vermişdi. Qalırdı onu toparlamaq. Bu da aktyorun işi, özü ilə obrazı arasında vəhdət bacarığıdır.

Tamaşanın sərsəm cəngavəri Don Kixot Pərviz Məmmədrzayevin ifasında inamlı təəssürat yaradırdı. Hərçənd onunla məzələnmək, daha doğrusu, oyuna çəkmək təcrübəli aktyor üçün elə də çətin olmadı və görülməyə dəyən Don Kixot idi. Həm texniki, həm də emosional baxımdan. Bu mənada sondakı ləngimə və gərəksiz çarmıx, müqəddəs ruha çevrilməsiz də təsirli, baxımlı alına bilərdi. Üstəlik, müəllifdən oxucuya hamımız Don Kixotun saflığının müqəddəslik həddinə biyət ediriksə, onu İsa (peyğəmbər) kimi qeybə çəkmək çox ritorik formadır və məncə, rejissorlar bundan imtina etməlidirlər.

Sanço Pansa (Nicat Əli) isə əlini sadiqlik oyunbazlığına bulamış uşağa oxşayırdı. O, özündən başqa hamını düşünüb, bütün diqqətini tərəf-müqabillərinə və zala verdiyindən (tamaşaçı üçün oynadığını səhnədə də unutmamaq aktyorun faciəsidir), replikalarından hoqqabazlığına tamaşaçının reaksiyasını sadalamağa baş sınırdığından, başdan sona uzunqulağa tərs mindiyindən hər an yıxılmaq qorxusu yaşayan uşağa bənzədi.

Dulsineya (Gültac Əlili) rejissorun "qapını aralı qoy" təlimatına "taybatay açdım" ilə cavab vermişdi. Özünə "qəhrəmanımı bütünlüyü ilə səhnəyə səpməliyəm"i təlqin etdikcə, "gözəllik" nümayişində çırpındıqca biz aktrisa olaraq roluna, əslində, nə qatdığını heç ayırd edə bilmədik...

Tamaşanın həm aktyor oyunu, həm də ümumi mizanında tam ahəngdarlığın olmadığı görünürdü. Amma nəzərə alsaq ki, bu, "yuğlama" estetikalı tamaşanın musiqili teatr səhnəsində "reinkarnasiya"sıdır, o zaman növbəti nümayişlərdə səhnədə bütün daşların yerinə oturacağını gözləmək olar...

**Həmidə Nizamiqızı**

# "Heydər Əliyev və Azərbaycan kinosu" mövzusunda konfrans

Mayın 6-da Azərbaycan Dövlət Film Fondunda "Heydər Əliyev və Azərbaycan kinosu" mövzusunda konfrans keçirilib.




Ümummilli liderin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş tədbirdə Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, kinorejissorlar – Xalq artistləri Oqtay Mir Qasım, Vaqif Mustafayev, kinoşünaslar – Əməkdar incəsənət xadimləri Aydın Kazımzadə, Ayaz Salayev çıxış edərək Heydər Əliyevin Azərbaycan kinosunun inkişafına töhfələrindən danışıblar.

Bildirilib ki, ulu öndər həm sovetlər dövründə, həm də müstəqil Azərbaycana rəhbərliyi zamanı milli kinematoqrafiya sənətinə, kino xadimlərinə xüsusi diqqət və qayğı göstərib. Natiqlər ümummilli liderin kino sahəsinə qayğısının bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini vurğulayıblar.

Sonra kinorejissor Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" sənədli filmi nümayiş olunub.

# Faşizm üzərində Qələbədən 77 il ötdü

## Bəşər tarixinin ən dəhşətli savaşında Azərbaycandan 300 min insan həlak olub

Bəşər tarixinin dəhşətli savaşlarından sayılan müharibədə qələbənin əldə edilməsində əvəzsiz xidmətləri olan, şücaət və qəhrəmanlıq göstərən bütün əsgərlərin, zabitlərin, adi vətəndaşların hər birinin xatirəsini dərin hörmətlə anırıq.

Bu sözlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 9 May – faşizm üzərində Qələbə Günü ilə bağlı yaydığı bəyanatda qeyd olunub.

Bəyanatda bildirilir ki, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin əldə edilməsində Azərbaycan xalqının önəmli töhfəsi olub. Müharibədə Azərbaycanın 600 mindən çox oğul və qızları iştirak edib, onlardan yarıdan çoxu döyüş bölgələrində həlak olub və itkin düşüb. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 123 vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabit müxtəlif orden və medallarla təltif edilib. Xalqımızın qəhrəman övladları bir çox ölkələrin faşizm əsarətindən azad olunmasında yaxından iştirak ediblər.

Diqqətə çatdırılır ki, bu tarixi qalibiyyətdə Bakı neftinin müstəsna rolu olub. 1941-1945-ci illərdə Sovet İttifaqında istehsal olunan neftin 70 faizindən çoxu, benzinin 80 faizi və mühərrik yağlarının 90 faizi Azərbaycanın payına düşüb. Sovet Ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Bakı neftçilərinin göndərdiyi yanacaqla hərəkətə gətirilib.

"Azərbaycan xalqı arxa cəbhədə də misilsiz əmək hünərləri göstərib, ordunun ehtiyaclarını ödəmək üçün gecə-gündüz fədakarlıqla çalışıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.

Azərbaycan xalqı İkinci Dünya müharibəsində qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin sevinc hissi ilə qeyd edir. Beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa edən Azərbaycan, beynəlxalq hüquq və ədalət uğrunda mübarizəni hər zaman dəstəkləyir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda, habelə 1941-1945-ci illər müharibəsində canından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq", – deyə Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanıb.

# Moskvada yaşayan soydaşımızın Qarabağ mövzulu kitablarının təqdimatı

Respublika Gənclər Kitabxanasında Moskvada yaşayan soydaşımız, yazıçı-publisist Ulduz Qasımın son zamanlarda çapdan çıxmış "Qarabağda qiyamət", "Ağ göyərçinlər" və "Qaçaq Aslan" kitablarıının təqdimatı keçirilib.

Tədbirdə kitabxananın direktoru Aslan Cəfərov, Əməkdar jurnalist Tahir Aydınoğlu və digər çıxış edənlər müəllifin Vətən sevgisi ilə qələmə aldığı əsərlərinin əhəmiyyətindən söz açıblar. Bu əsərlərin xarici dillərə tərcümə olunması və daha geniş oxucu auditoriyasında təbliğ olunmasının zəruriliyi vurğulanıb.

Sonda Ulduz Qasım tədbirin təşkilinə görə kitabxanaya minnətdarlığını bildirib. Müəllif kitablarını imzalayaraq qonaqlara hədiyyə edib.

# "Ölməz qələm cəngavəri"

Gürcüstanın paytaxtı Tbilisidə böyük Azərbaycan şairi Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünə həsr olunan "Ölməz qələm cəngavəri" adlı tədbir keçirilib.

Xatirə gecəsi Tbilisi Şəhər Şurasında (Sakrebulo) təşkil olunub. Şəhər meriyasının dəstəyi və M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin iştirakı ilə reallaşan tədbirdə əvvəlcə gürcü kişi xoru Gürcüstanın və Azərbaycanın Dövlət himnlərini ifa ediblər. Muzeyin direktoru, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Leyla Əliyeva qonaqları salamlayıb, tədbirin təşkilinə görə Tbilisi Şəhər Şurasına təşəkkürünü bildirib.

Şəhər şurasının üzvü Nino Ruxadze çıxış edərək Əhməd Cavadın Gürcüstanla sıx əlaqələrindən danışıb. O, azərbaycanlı şairin Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərini orijinaldan Azərbaycan dilinə tərcümə etdiyini xatırladıb. Sakrebulonun sədri Giorgi Tkemaladze çıxış edərək azərbaycanlı şairin yaradıcılığına nəzər salıb, onun xatirəsinə həsr olunan tədbirə ev sahibliyi etməkdən məmnunluğunu bildirib.

Azərbaycanın Gürcüstandakı səfirinin müşaviri Eldar Bayramov Azərbaycan ilə Gürcüstan arasındakı mədəni əlaqələrdən söz açıb.

Sakrebulonun Təhsil və mədəniyyət komissiyasının rəhbəri, yazıçı İrakli Şamatava Ə.Cavadın yaradıcılığı və fəaliyyəti barədə danışıb. Bildirib ki, şair Acarıstanda da yaşayıb və gürcülərin yaxşı dost olduğunu yazıb. İ.Şamatava həmçinin bildirib ki, gələn il Gürcüstan və Azərbaycan ədəbiyyatına həsr olunan ikidilli antologiyanın nəşri nəzərdə tutulub.

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin (TDU) nümayəndəsi, Qafqazşünaslıq Elmi-Tədris İnstitutunun rəhbəri Merab Çuxua çıxışında Gürcüstanda Azərbaycan ədəbiyyatının tədrisindən söz açıb. Bildirib ki, Ə.Cavadın əsərlərinin də proqrama daxil edilməsi nəzərdə tutulub.

Tədbirin bədii hissəsində aşıq Nargilə Mehtiyeva rəhbərlik etdiyi "Meydan" aşıqlar qrupu ilə birgə Əhməd Cavadın sözlərinə yazılmış "Gəncədən gəlirəm" mahnısını ifa edib.

Azərbaycanlı uşaqlar şairin "Gürcüstan" şeirini söyləyiblər.

# Azərbaycanın özü qədər əbədi

## Ulu öndərin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş sərgi və məlumat bazasının təqdimatı

Milli Kitabxanada ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə sərgi təşkil edilib və elektron məlumat bazası hazırlanıb. Mayın 6-da kitab sərgisi və elektron toplunun təqdimatı keçirilib.

Tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq bildirib ki, mayın 10-da anadan olmasının 99-cu ildönümünü qeyd edəcəyimiz ulu öndər Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində parlaq səhifə açan bənzərsiz şəxsiyyətdir. Ümummilli liderin mədəniyyətə hər zaman diqqət və qayğı göstərdiyini deyən direktor bildirib ki, Heydər Əliyev 1995-1997-ci illərdə Milli Kitabxananı 4 dəfə ziyarət edib və ilk gəlişində şəxsi kitabxanasından 300 nüsxəyə yaxın kitabı mədəniyyət ocağına hədiyyə edib.

Ulu öndərin dövlətçilik kursunun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini vurğulayan K.Tahirov qeyd edib ki, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun otuz ilə yaxın sürən işğala son qoyaraq torpaqlarımızı azad etməsi tariximizin ən şanlı səhifəsidir. Prezident İlham Əliyev ümummilli liderin bu yolda başladığı tarixi işləri çox böyük uğurla davam etdirərək ona da başucalığı gətirib. Heydər Əliyevin əziz xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.




AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə elmlər doktoru, professor Mais Əmrahov bildirib ki, ulu öndər haqqında çoxsaylı kitablar yazılıb, bundan sonra da yazılacaq. Lakin onun haqqında ən böyük əsər müstəqil Azərbaycan Respublikasıdır. Heydər Əliyevin ən böyük arzusu həyata keçib – işğal altında olan torpaqlarımız artıq azaddır. Müstəqil Azərbaycan dünya dövlətləri arasında başıuca, azad ölkə kimi tanınır.

Milli Kitabxananın elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini Ədibə İsmayılova Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyevin əvəzsiz xidmətlərindən, ümummilli liderin mədəni irsə, o cümlədən kitaba və kitabxanaya verdiyi yüksək dəyərdən bəhs edib.

Sonra "Azərbaycan xalqının ümummilli lideri" adlı elektron məlumat bazası (anl.az/el/emb/H.Aliyev/index.html) təqdim edilib və Heydər Əliyev haqqında qısa film nümayiş olunub.

Sonda iştirakçılar Milli Kitabxananın fondundakı nəşrlərdən tərtib edilən "Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti – Heydər Əliyev" adlı sərgi ilə tanış olublar.

# İstiqlal şairinin Vətən nəğmələri

## Əhməd Cavad – 130



XX əsrin birinci yarısında xalqımızın azadlıq və milli istiqlal ideyasının gerçəkləşməsi uğrunda mübarizə aparan, 30-cu illər repressiyasında "xalq düşməni" kimi qətlə yetirilən böyük ziyalılarımızdan biri də şair Əhməd Cavad olub. Tərcüməçi, maarifçi-pedaqoq və ictimai xadim kimi də tanınan şairin zəngin yaradıcılığında dövrün ictimai-siyasi mənzərəsi dolğunluqla əksini tapıb.

Prezident İlham Əliyev 20 aprel 2022-ci il tarixdə Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. İstiqlal şairimizin yubileyi ölkəmizlə yanaşı, Türk dünyasında da müxtəlif tədbirlərlə qeyd olunacaq.

Gəncə qəzasının Seyfəli kəndində Axund Məhəmmədəlinin ailəsində 5 may 1892-ci ildə bir oğlan uşağı dünyaya göz açır. Adını Cavad qoyurlar. O, ilk təhsilini molla məktəbində alır. Yeddi yaşında ikən Quranı sərbəst oxuyur. Hətta bəzi surələri əzbər bilir. Ancaq gözlənilmədən ailəyə bədbəxtlik üz verir. Axund Məhəmmədəli 1900-cü ildə vəfat edir.

Çətinliklərlə üzləşən Cavadın anası Yaxşı xanım qayınlarının məsləhəti ilə 1906-cı ildə Gəncə şəhərinə köçür. Burada xalça sexində işə düzəlir. Cavad isə Müsəlman-Ruhani Seminariyasında təhsilini davam etdirir. O, ilk gündən müəllimlərinin diqqətini çəkir. Bədii yaradıcılığa maraq göstərir, şeirlər qələmə alır.

1910-cu ildə Cavadın müəllimi, ədəbiyyatşünas Abdulla Tofiq (Abdulla Sur) dostu Abdulla Şaiqə göndərdiyi məktubunda yazır: "Tələbələrimin içində Cavad adlı bir gənc yazar var. Mənə oxuduğu ilk mənzumələri gələcəyə böyük ümidlər verir. Lisanı-dili çox sadə və gözəldir".

Əhməd Cavadın hələ tələbə ikən siyasi lirikaya meyilliliyi seminariyada ona dərs deyən görkəmli şair-dramaturq Hüseyn Cavidin də diqqətini çəkir, istedadını yüksək qiymətləndirir. "İqbal" qəzetində dərc etdirdiyi bir məqaləsində Cavadın müəllimi, vaxtsız vəfat edən Abdulla Sura həsr etdiyi şeirini də verir:

*Ey qardaşlar, bir zamanlar*
*elmsizlik dumanı,*
*Cəhalətin kor pəncəsi*
*qaplamışdır hər yanı...*
*Quran nədir? Anlamadıq,*
*Vətən nədir? Bilmədik!*
*Qarşımızda yetimlərin*
*göz yaşını silmədik.*
*Ağlanacaq bir hal idi,*
*kəndimizdə görürdük,*
*Dilimizin, dinimizin*
*getməsinə gülürdük...*

Əhməd Cavad 1912-ci ildə seminariya təhsilini müvəffəqiyyətlə başa vurur. Həmin il Osmanlı Türkiyəsinin Balkan yarımadasındakı hökmranlığına son qoyacaq müharibə başlanır. İki il sürən müharibədə Bolqarıstan, Yunanıstan, Serbiya və onların böyük himayədarları qarşısında ağır məğlubiyyət yaşayan Osmanlının vəziyyəti türk-müsəlman dünyasında ciddi narahatlığa səbəb olur. Azərbaycanın bir çox bölgələrindən, o cümlədən Bakı, Gəncəbasar, Qarabağ və Şirvandan vətənpərvər gənclər Qafqaz könüllüləri tərkibində Osmanlıya köməyə gedirlər. Bu könüllülər arasında Əhməd Cavad və əqidə dostları İdris Axundzadə, İsa Əlizadə, Əli Əsədulla da İstanbula gedir. Balkan müharibəsində bir əlində silah, o birində qələm döyüşürlər.

Əhməd Cavad 1913-cü ildə Balkan müharibəsindən geri dönür. Gəncədə Qafqazın Şeyxülislamı Məhəmməd Pişnamazzadənin qarşısında imtahan verir. "Şərəfli türk və fars dilləri müəllimi" sənədi alır. Gəncədə 1 nömrəli qızlar məktəbində müəllim kimi pedaqoji fəaliyyətə başlayır.

Gəncə ədəbi mühiti Əhməd Cavadın müəllim, şair və ictimai xadim kimi formalaşmasına müsbət təsir göstərir. O, 1914-cü ildə Nəsib bəy Yusifbəylinin vasitəçiliyi ilə Gəncəyə gələn doktor Xosrov paşa Sultanov ilə tanış olur. Ələkbər bəy Rəfibəyli və Nəsib bəy Yusifbəylinin zəmanəti ilə "Xeyriyyə cəmiyyəti"nin katibi və cəmiyyətin sədri Xosrov bəyin müavini təyin edilir.

Həmin il I Dünya müharibəsi başlayır. Müharibənin ən ağır cəbhələrindən biri Osmanlı-Rusiya cəbhəsi idi. 1915-ci ildə çar ordusunun əsgərləri və erməni separatçı dəstələri tərəfindən Qars və Ərzurumda dinc türk-müsəlman əhaliyə qarşı kütləvi qırğınlar həyata keçirilir.

Türkiyəli qardaşlarımızın taleyi üçün narahatlıq keçirən Əhməd Cavad da bu bölgələrə yollanır. Qarsda türklərə qarşı törədilən qırğınlardan bərk sarsılır. Qarşılaşdığı mənzərəni "Nə gördümsə" adlı şeirində dilə gətirir:

*Ərməğanım yaslı nəğmə,*
*Bir quş oldum, çıxdım yola.*
*Getdim gördüm dost elində*
*Nə bir səs var, nə bir layla...*

İnsanları qətlə yetirilən, özü isə xarabazarlığa çevrilən Qars şəhəri şairə mənəvi əzab verir. "İmdad" şeirində yazır:

*Ziyafət görmədim, yaslıdır ellər,*
*Çoxalmış məzarlar dərdini söylər.*
*Talanmış şanələr, yolunmuş tellər*
*Olduğunu duydum,*
*imdadə gəldim...*

Müharibə üzündən türk kənd və şəhərlərindən minlərlə insan qaçqın, köçkün düşür. Əhməd Cavad 1916-cı ildə böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə Batumda yaşayan 2500-ə yaxın azərbaycanlı ailəsi üçün məktəb açır, özü də dərs deyir. 1917-ci ildə isə şairin köməkliyi ilə 2500 nəfərdən çox türkiyəli qaçqın Gəncə və Bakı ətrafında məskunlaşır...

***

Bədii yaradıcılığını davam etdirən Əhməd Cavad Vətənə, onun əsrarəngiz təbiətinə onlarca şeir həsr edib. Müəllifin "Azərbaycan, Azərbaycan!" şeiri vaxtilə el şənliklərində aşıqların dilindən düşməyib:

*Laçının var, tərlanın var,*
*Çoxlu şirin dastanın var,*
*Qorxun yoxdur, düşmanın var,*
*Azərbaycan! Azərbaycan!*

Azərbaycan 28 aprel 1920-ci ildə bolşevik Rusiyası tərəfindən işğal olunur, Cümhuriyyət süqut edir. Şair bundan çox sarsılsa da, yaradıcılığa daha çox vaxt ayırır. "Qoşma" və "Dalğa" adlı iki kitabı işıq üzü görür. 1928-ci ildə İstanbulda şairin "İstiqlal uğrunda" adlı daha bir şeirlər kitabı nəşr olunur. "Kür", "Pambıq dastanı", "Səsli qız" poemalarını və məşhur "Göygöl" şeirini yazır.

*Sənin gözəlliyin gəlməz ki, saya,*
*Qoynunda yer vardır,*
*ulduza, aya.*
*Oldun sən onlara*
*mehriban daya,*
*Fələk busatını quralı, Göygöl!*

Şairin bədxahları ay-ulduzun adıçəkilən şeirin antisovet ruhlu olduğunu bildirirlər. Buna görə də Əhməd Cavad həbs olunur. Bir neçə ay çəkən sorğu-sualdan sonra həbsdən buraxılır.

Əhməd Cavad tərcüməçilik fəaliyyəti ilə də məşğul olub, A.Puşkinin "Kapitan qızı", "Tunc atlı", İ.Turgenevin "Atalar və oğullar", M.Qorkinin "Çocuqluq", T.Şevçenkonun "Kobzar", "İşçi qadın", K.Hamsunun "Aclıq", F.Rablenin "Qarqantua və Pantaqruel", Şekspirin "Otello", Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" və digər müəlliflərin əsərlərini Azərbaycan dilinə çevirib.



Vətənpərvər şair 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını böyük sevinclə qarşılayıb, 23 aylıq müstəqillik dövründə çox məhsuldar yaradıcılıq fəaliyyəti göstərib. "Dan ulduzu", "Azərbaycan, Azərbaycan!", "Dağlar", "Gəncəm, hey" kimi onlarla məşhur şeirini qələmə alıb. Həmin dövrdə yazdığı, dahi bəstəkar Üzeyir Hacıbəylinin musiqi bəstələdiyi "Milli Azərbaycan marşı" (Azərbaycanın Dövlət Himni) şairin Vətən eşqinin, onun ideallarının zirvəsini təşkil edir. Eyni zamanda bu gün də Türkiyə və Azərbaycanda böyük coşqu ilə dinlənilən "Çırpınırdın, Qara dəniz" şeiri (musiqisi Üzeyir Hacıbəyli) ürəkləri fəth edir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində Əhməd Cavad Milli Şuraya müraciətlə "Qardaş" şeirini yazır. Müəllif şeirdə gənc respublikanı fidana bənzədir. Milli hökumət rəhbərlərini, xalqı ruhdan düşməməyə və mübarizəyə səsləyir:

*Təmiz alnındakı tozu, torpağı,*
*Həqq üçün açdığın əllərinlə sil!*
*Vətən bir fidandır, yaşıl bayrağı,*
*Soldurmamaq sənin*
*əlindədər, bil.*

Əhməd Cavad 1920-1937-ci illər arasında bir neçə dəfə həbs edilib. 1929-1930-cu illərdə davam edən ifşa kampaniyasından sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dosent işləyən Əhməd Cavad 1930-cu ildə institut Gəncəyə köçürüldüyü zaman o da Gəncəyə köçmək məcburiyyətində qalır. Lakin əsl məqsəd şairi Bakı ədəbi-ictimai mühitindən kənarlaşdırmaq idi. Buna baxmayaraq, beş il Gəncədə yaşayıb-yaradan şair özünə qarşı edilən haqsız hücumlardan ruhdan düşməyərək Kənd Təsərrüfatı İnstitutunda dərs deyir. Həmçinin Gəncə Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində işləyir. 1933-cü ildə şairə professor adı verilir.

Şair 1937-ci ilin martında Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən çıxarılır. Həmin il iyunun 4-də yenidən həbs edilir. Oktyabrın 12-də məhkəmənin qərarı ilə ona güllələnmə hökmü oxunur və bir gün sonra hökm icra olunur.

Milli azadlıq ideallarının görkəmli tərənnümçüsü olan Əhməd Cavad Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə "Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısı"na daxil edilib.

**Savalan Fərəcov**

# Fikrət Əmirovun yaradıcılığında Azərbaycan mövzusu

Vətən eşqi sonsuz və intəhasızdır. Hər bir vətəndaş bu eşqi öz təbirincə izhar edir. İnsanlara vətən sevgisini aşılamaqda sənətkarların rolu daha böyükdür. Kimi sözü, kimi musiqisi, kimi təsviri sənət nümunələri ilə bu sevgini ifadə edir. Böyük bəstəkar Fikrət Əmirovun yaradıcılığında da vətənpərvərlik mövzusu mühüm yer tutur. "Mənim yaradıcılıq xəmirim xalq musiqisi ilə yoğurulub", – deyən bəstəkar öz əsərlərində də məhz bu fikrə əsaslanan sənət inciləri yaradıb. Müxtəlif janrlı əsərlərində xalq musiqisi intonasiyalarından rişələnən melodiyalar onun hiss və duyğularını yüksək peşəkarlıqla sənətsevərlərə çatdırır. Bu peşəkarlığın kökündə, təbii ki, Fikrət Əmirovun böyük istedadı, gərgin zəhməti və sonsuz vətən eşqi dayanır.

Fikrət Əmirovun "Azərbaycan süitası", "Azərbaycan kapriççiosu" və "Azərbaycan qravürləri" əsərlərində qədim diyarımızın tarixi, dünəni, bu günü, füsunkar təbiəti, insanların mərd, mübariz olması və bu kimi düşüncələr yüksək vətənpərvərlik mövqeyi ilə notlara düzülüb və xoş melodiyalarla da qulaqlara süzülür. Bu əsərlər öz melodik gözəlliyi və yüksək professionallığı ilə dünya musiqiçilərinin də diqqətini cəlb edib. "Azərbaycan süitası", "Azərbaycan kapriççosu" və "Azərbaycan qüravürləri" ilə bağlı düşüncələrimizi də bu əsərlər haqqında deyilən fikirlərdən nümunələrlə diqqətə çatdırmaq istərdik.

### "Azərbaycan süitası"

*"Mən sizin "Azərbaycan" simfonik süitasının partiturasını öyrəndim... musiqinizə heyran odum..." (Leopold Storkovski).*

"Azərbaycan süitası" (1950) doğma diyarın gözəlliklərini tərənnüm edən nikbin bir əsərdir. Xalq həyatından lövhələri əks etdirən bu süitada folklor ruhu hökm sürür. Dörd hissədən ibarət olan süitada müxtəlif lövhələr növbələşir. Bəstəkar süitanın hər hissəsinə proqramlı başlıqlar vermişdir.

Birinci hissə "Gənclik, gözəllik", ikinci hissə "Çoban bayatı", üçüncü hissə "Kəndimizdə", dördüncü hissə "Nəğməmsən, Bakı" adlanır.

Birinci hissə aşıq musiqisinin ritmləri üzərində qurulur, çox dinamik və canlıdır. İkinci hissə peyzaj lövhəsidir. Lirik məzmunludur, burada muğam cizgiləri nəzərə çarpır. Üçüncü hissə "Yallı" rəqsini xatırladır. Son hissə marş xarakterli olub, Bakı şəhərinin şərəfinə himndir. Süitadakı sırf milli xarakterli melodiyalar, zəngin orkestrləşdirmə Səməd Vurğunun şeriyyətindən ilhamlanaraq qələmə alınmışdır.



*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan!*

Əsər Səməd Vurğuna həsr olunmuşdur.

Fikrət Əmirov həmişə Səməd Vurğunun poeziyasını yüksək dəyərləndirmiş, Azərbaycan xalqının üç böyük oğlunu – Üzeyir Hacıbəyli, Bülbül və Səməd Vurğunu "sənətimizin parlaq məşəlləri", "üç müdrik sima" adlandırmışdır. Süitanı dinlədikdən sonra Səməd Vurğun Fikrət Əmirovla söhbətində belə demişdir: "Sənin Azərbaycan süitanı eşitdim, lap Kəpəzin başına çıxmışdın...". Bu sözlərlə Səməd Vurğun süitanın "Çoban bayatı" adlanan hissəsindən aldığı təəssüratı ifadə etmişdir. Əsərin obraz məzmunu şairin ruhunu, xalqın tarixi keçmişini, onun həyatını əks etdirir. Şənlik hissiyyatı bütün süitaya hopdurulmuşdur.

### "Azərbaycan kapriççiosu"

*"Fikrət Əmirov "Azərbaycan kapriççiosu"nda folklor materialı üzərində lakin onu təkrarlamadan, incə motivlər yaratmışdır. Atonallığın təsirinə düşmədən, artıq, mənasız akkordlardan uzaq qaçaraq, o, ustalıqla orkestrləşmədə Bartok üslubunda gözəl və heyrətamiz əsər bəstələyə bilmişdir" (Ferdi Ştatser, alman musiqişünası).*

*"Möcüzəli Azərbaycan melosu ilə zəngin olan Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" parlaq, rəngarəng bir kompozisiyadır. Bu əsər bəstəkara xas olan parlaqlıqla yazılaraq, rus simfonizmi ənənələrinin davamı olub, ruhən P.İ.Çaykovskinin "İtalyan kapriççiosu"na yaxındır" (Abram Staseviç, dirijor, Rusiyanın Əməkdar incəsənət xadimi).*

*"Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" çox bayramsayağı bir əsər olub, xalq şənliyini ifadə edərək, nikbinliyi və musiqi dilinin təravətliliyi ilə diqqəti çəkir" (Natali Raxlin, dirijor, SSRİ Xalq artisti).*

"Azərbaycan kapriççiosu" (1961) parlaq, milli ruhda bir əsər olub, özünəməxsus təzadlı lövhələrdən qurulmuşdur. Çox melodik, rəngarəng, temperamentli musiqisi ilə seçilən bu əsər yüksək dərəcədə zövqlü orkestr palitrası ilə fərqlənir.

"Azərbaycan kapriççiosu" Fikrət Əmirovun "Nizami" simfoniyası, "Şur" və "Kürd ovşarı" simfonik muğamlarından sonra yaranaraq, onun daha da təkmilləşmiş üslubunu, cilalanmış dəst-xəttini əks etdirir. Bəstəkar bu əsərində ümumşərq musiqisinə xas olan xalq improvizasiyalılığını canlandıra bilmişdir. "Azərbaycan kapriççiosu" bir neçə başlıca məziyyətlərinə görə fərqlənir: melodizm, lad əsası, ritmika və tembr.

"Şərq barokko üslubu" – "Azərbaycan kapriççiosu"nun üslubunu belə səciyyələndirmək olar. Bu təmtəraqlı, təntənəli musiqi təzadlı lövhələrdən ibarətdir. Burada təmtəraqla yanaşı, incə lirika, kapriççio janrına xas olan mövzuların müxtəlif görünüşlər almasına rast gəlinir. Bəstəkarın zəngin təxəyyülü xalq musiqisinə yaxın mövzuların bir-birini əvəzləməsində, bu mövzuların bir-biri ilə əlaqələndirilməsində özünü büruzə verir,

Onu da qeyd etməliyik ki, kapriççionun tematizmi bəstəkarın "Səhər" və "Böyük dayaq" filmlərinə yazdığı musiqinin bir sıra fraqmentləri ilə assosiasiya yaradır.

### "Azərbaycan qravürləri"

*"Mən həmişə arzulayıram ki, Azərbaycan musiqisi Yer kürəsinin bütün nöqtələrində səslənsin... Çünki xalqın musiqisi onun özü haqqında təəssürat yaradır. Əgər ürəyimin bu arzusu qismən həyata keçmişsə, demək, mən xoşbəxtəm..." (Fikrət Əmirov).*

"Azərbaycan qravürləri" (1979) üç hissədən ibarətdir: "Odun rəqsi", "Gözəlim, sənsən", "Qobustanda". Bütün qravürlər birbiri ilə təzadlıdır, öz obraz-emosional məzmununa malikdir.

Birinci qravür – "Odun rəqsi" qədim mifoloji təsəvvürlərlə bağlı olub, həyatın başlanğıc ünsürlərindən biri olan oda inamı əks etdirir. Bu qravürün musiqisi çox temperamentli və enerjilidir.

İkinci qravür – "Gözəlim, sənsən" eyniadlı xalq mahnısının sərlövhəsini xatırladan bu başlıq bəstəkarın doğma diyara müraciətini əks etdirir. Vətənə məhəbbət bəsləyib, onun gözəlliklərindən vəcdə gələn müəllif öz ülvi hisslərini alicənab tərzdə açır. Gözəl melodiya bəstəkarın müxtəlif hisslərini özündə əks etdirir.

Üçüncü qravür – "Qobustanda" tarixi keçmişə səyahətdir. Qayaüstü təsvirlərlə zəngin olan bu yerdə ulu əcdadlarımızın həyatı təsvir olunur.

Musiqişünas V.Şərifova-Əlixanova yazır: "Burada keçmişə müasirlərimizin gözü ilə baxılır. Qravürün musiqisində bizim dövrümüzün cizgiləri və xüsusiyyətləri çoxluq təşkil edir. Buna görə də o, müasir həyatın ritmik nəfəsi ilə doldundur".

"Azərbaycan qravürləri" bütövlükdə tam bir silsilədir. Hissələr eyni ideya mənası ilə birləşir. Burada birinci və üçüncü hissələr musiqinin xarakteri etibarilə bir-biri ilə oxşardır. Hər iki hissə Azərbaycanın tarixi keçmişinə həsr edilmişdir. Birinci hissədə oda sitayişlə bağlı əfsanələr, üçüncü hissədə isə Qobustanda qayaüstü rəsmlərlə bağlı rəvayətlər canlandırılır. Hər iki hissə çox ciddi səslənir və qədim kolorit duyulur. Burada odlu, "atəşlərin rəqsi" xarakteri yaradılır.

"Azərbaycan qravürləri"nin orkestrləşmə üslubu zərb alətlərinə geniş yer verilməsi ilə fərqlənir. Bu da təbiidir. Birinci və üçüncü qravür qədim keçmişə səyahət olub, ibtidai dövrün təsvirini verir. Həmin dövrün təsviri bu alətlərlə canlandırılır. Hətta üçüncü qravürün zərb aləti solosu ilə başlanması Qobustanda yerləşən Qavaldaşının səsi ilə bənzəyiş yaradır.

Biz bu yazının mövzusuna uyğun olaraq bəstəkarın üç əsərini nəzərdən keçirdik. Amma Fikrət Əmirov üçün Vətən mövzusu yaradıcılığının əsas qayəsidir. Janrından asılı olmayaraq, o öz əsərlərini xalq və vətən sevgisi ilə qələmə alıb. Odur ki, F.Əmirov musiqisi daim xalqın zövqünü oxşayır, insanların mənəvi dünyasını zənginləşdirir və dərin vətənpərvərlik hissi aşılayır.

**Səadət Təhmirazqızı**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Muzeydə növbəti mühazirə Şuşa xalçalarına həsr olunub

Mayın 7-də Azərbaycan Milli Xalça Muzeyində "Şuşa xalçaları" mövzusunda mühazirə dinlənilib. Mühazirədə gənc xalçaçılar, tələbələr iştirak ediblər.




Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Kübra Əliyevanın təqdim etdiyi mühazirədə Şuşa xalçalarının tarixi, bədii xüsusiyyətləri və toxunma texnologiyaları barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Azərbaycan xalça sənətində Qarabağ mükəmməl toxunuşu, iri ölçüləri, rəngarəng çalarları ilə seçilib. Rəng palitrası isə Qarabağın təbii coğrafi şəraiti, gözəl mənzərələri, bağları, meşələri və yaşıl çəmənlərindən gələn şux (qırmızı, sarı), parlaq və kontrast rənglərdən ibarətdir. Bu xalçalar üç qrupa – Şuşa, Qarabağ və Cəbrayıl xalça qruplarına bölünür.

Şuşa qrupuna aid "Malıbəyli", "Ləmpə", "Bağçada güllər", "Bulud", "Saxsıda güllər" və "Nəlbəki gül" xalçaları hündür xovu, əlvan, şux koloriti, incə toxunuşu ilə diqqət çəkir. Bir qayda olaraq bu ərazilərdə xanlara məxsus böyük sarayların və malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunub. Buna nümunə olaraq üç-beş hissədən ibarət dəst xalı-gəbələri misal çəkmək olar. Bu dəstlərin toxunmasında "Ləmpə", "Qoca", "Balıq", "Buynuz", "Açma-yumma", "Bulud" kimi geniş yayılmış çeşnilərdən istifadə edilib.

Daha sonra muzeydəki xalçalara baxış keçirilib.

## İki dahinin dostluğunu yaşatmaq

### Rostropoviçlər muzeyinin ağacəkmə aksiyası



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar mayın 6-da Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyinin təşkilatçılığı və Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Nərimanov rayon 5 saylı Yaşıllaşdırma idarəsinin dəstəyi ilə ağacəkmə aksiyası keçirilib. Aksiyada muzeyin direktoru vəzifəsini icra edən Günay Əliyeva, 5 saylı Yaşıllaşdırma idarəsinin rəisi Aris Muxtarov və hər iki müəssisənin əməkdaşları iştirak ediblər.

Nərimanov rayonundakı Zaur Nudirəliyev küçəsində salınan bağa "Heydər Əliyev və Mstislav Rostropoviç dostluq bağı" adı verilib. Bu iki dahinin dostluğunun zəngin tarixi var. Maestronun Bakıya hər gəlişi əlamətdar hadisələrlə yadda qalıb.

Heydər Əliyev söhbətlərində M.Rostropoviç haqqında deyirdi: "Mən dostumuzun, həmyerlimizin beynəlxalq nüfuza malik olmasına sevinirəm... Paris Parisdir, Moskva Moskvadır, Bakı isə bizim planetimizin, dahi insanın dünyaya göz açdığı yerdir...".

M.Rostropoviçin həyatında xeyriyyəçilik böyük rol oynayıb. O, təbiətin mühafizəsi, nəsli kəsilməkdə olan heyvanlar üçün vəsait toplamaq məqsədilə konsertlər verib. Maestro həmçinin qaçqınlara, ağır xəstəliyə tutulmuş uşaqlara kömək məqsədilə müxtəlif ölkələrdə xeyriyyə konsertləri ilə çıxış edib, o cümlədən doğulduğu Azərbaycan üçün bu qəbildən aksiyalarda iştirak edib.

L. və M.Rostropoviçlərin Ev-Muzeyi iki böyük şəxsiyyətin dostluğunu yaşatmaq, eyni zamanda görkəmli musiqiçinin xeyriyyəçilik, təbiət mühafizi kimi ənənələrini davam etdirmək üçün belə bir aksiyanın təşəbbüskarı olaraq çıxış edib.

## Xatirə təqvimi — 9-12 may

### Azərbaycan

**9 may 1909** – Ədəbiyyatşünas alim, akademik Məmməd Cəfər (Məmməd Zeynalabdin oğlu Cəfərov; 1909-1992) Naxçıvanda anadan olub. Ədəbiyyat tarixi və nəzəriyyəsinə dair əsərlərin müəllifidir.

**9 may 1917** – Xalq artisti, tarzən Əliağa Eyvaz oğlu Quliyev (1917 – 11.1.1998) anadan olub.

**9 may 1928** – Xalq artisti, violonçel ifaçısı Sabir Hüseynəli oğlu Əliyev (1928 – 26.10.1983) anadan olub. Milli violonçel ifaçılığı sənətinin əsasını qoyub, Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**9 may 1940** – Əməkdar artist Şamil Mahmud oğlu Dəmirçiyev (1940-2002) anadan olub. İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru olub, Musiqili Komediya Teatrında çalışıb.

**9 may 1941** – Tanınmış aktyor Kamil Fərman oğlu Məhərrəmov (1941 – 8.10.1993) Bakıda doğulub. Sumqayıt Dövlət Dram Teatrında çalışıb, "Dərviş Parisi partladır", "Yol əhvalatı" və s. filmlərdə yaddaqalan rollar oynayıb.

**9 may 1945** – Əməkdar rəssam Faiq Nağı oğlu Abdullayev (1945 – 28.10.2020) Gəncə şəhərində doğulub. Gəncə şəhər Uşaq rəssamlıq məktəbinin müəllimi olub.

**9 may 1967** – Əməkdar artist Xanım Abdulqafar qızı Qafarova (1967 – 11.7.2014) Bakıda anadan olub. Akademik Musiqili Teatrda çalışıb, filmlərdə çəkilib.

**9 may 1973** – Bakıda əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin açılış mərasimi keçirilib.

**9 may 2012** – Xalq artisti Süleyman Paşa oğlu Nəcəfov (6.8.1948 – 2012) vəfat edib. İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**9 may 2019** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (13.9.1933 – 2019) vəfat edib. "Məhəbbət əfsanəsi" baleti, simfonik poemalar, simfoniyalar və s. əsərlərin müəllifidir. Filmlərə ("Sehrli xalat", "Axırıncı aşırım"), tamaşalara musiqi yazıb. BMA-nın professoru olub.

**10 may 1910** – Əməkdar incəsənət xadimi, rejissor Həsən Səfər oğlu Ağayev (1910-1986) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrında çalışıb.

**10 may 1922** – Əməkdar rəssam Cabbar Əli oğlu Quliyev (1922 – 27.8.2004) Qərbi Azərbaycanın Zəngibasar mahalında (Ermənistanın Masis rayonu) anadan olub. Aşıq Ələsgər, Xəstə Qasım və başqa el sənətkarlarının portret-obrazlarını yaradıb.

**10 may 1926** – Yazıçı-ssenarist Əhmədağa Muğanlı (Əhmədağa Əkbər oğlu Qurbanov; 1926 – 4.8.2001) Biləsuvar rayonunun Əliabad kəndində doğulub. "Dağlarda döyüş", "Doğma sahillər" və s. bədii filmlərin ssenari müəllifidir.

**10 may 1937** – Xalq şairi Musa Yaqub (Musa Səfiməmməd oğlu Yaqubov; 1937 – 7.5.2021) İsmayıllı rayonunun Buynuz kəndində doğulub. "Ürəyimdə yerin qaldı", "Ruhumla söhbət", "Dövrün dəyirmanı" və s. kitabların müəllifidir. Milli Məclisin deputatı (1995-2000) olub.

**10 may 1938** – Əməkdar mədəniyyət işçisi, miniatürçü rəssam Fəxrəddin Vəli oğlu Əliyev (1938 – 8.2.2022) Ermənistan SSR Mehri rayonunun Nüvədi kəndində anadan olub. AMEA Əlyazmalar İnstitutunda baş rəssam işləyib.

**10 may 1946** – Ədəbiyyatşünas, mətnşünas Maarif Abı oğlu Teymur (1946 – 9.10.2016) Masallı rayonunun Ərkivan kəndində doğulub. Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru olub.

**11 may 1915** – Görkəmli heykəltəraş, Xalq rəssamı Fuad Həsən oğlu Əbdürrəhmanov (1915 – 15.6.1971) Şəkidə anadan olub. Nizami Gəncəvinin (Bakıda və Gəncədə), Səməd Vurğunun abidələrinin, "Azad qadın" heykəlinin müəllifidir.

**11 may 1928** – Əməkdar mədəniyyət işçisi, aktyor, kino təşkilatçısı Nəriman Qulam oğlu Axundov (1928-2009) anadan olub. 1958-ci ildən "Azərbaycanfilm" Kinostudiyasında müxtəlif vəzifələrdə çalışıb.

**11 may 1935** – Xalq yazıçısı Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov (1935 – 22.3.2016) anadan olub. Bir sıra əsərləri ("Mezozoy əhvalatı", "Bayquş gələndə") ekranlaşdırılıb. "Bizim Cəbiş müəllim", "Uşaqlığın son gecəsi" və s. filmlərin ssenari müəllifidir. Milli Məclisin deputatı (1995-2010) olub.

**11 may 1946** – Əməkdar rəssam Nazim Şamil oğlu Rəhmanov (1946-2003) anadan olub. Əsərləri Moskva Şərq Xalqları İncəsənəti Muzeyində, şəxsi kolleksiyalarda saxlanılır.

**12 may 1907** – Xalq artisti, bəstəkar və pedaqoq Səid Rüstəmov (1907 – 10.6.1983) İrəvanda anadan olub. "Beşmanatlıq gəlin", "Durna" və s. musiqili komediyalarının, populyar mahnıların ("Qurban adına", "Oxu, gözəl" və s.) müəllifidir. Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və dirijoru olub.

**12 may 1915** – Xalq rəssamı, heykəltəraş İbrahim Əli oğlu Quliyev (1915 – 16.6.1971) Şəkidə doğulub. Azərbaycanın ilk peşəkar heykəltəraşlarından biridir, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü olub.

**12 may 1935** – Tanınmış diktor, Əməkdar jurnalist Valid Möhsün oğlu Sənani (1935-2011) Bakıda doğulub. Azərbaycan Televiziyasının ilk futbol şərhçisi olub.

**12 may 1940** – Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi, ədəbiyyatşünas Abbas Abdulla (Hacaloğlu; 1940 – 4.9.2019) Gürcüstanın Bolnisi rayonunun Bolus Kəpənəkçi kəndində doğulub. Ukrayna ədəbiyyatından tərcümələr edib.

**12 may 1940** – Əməkdar incəsənət xadimi, heykəltəraş Vaqif Osman oğlu Nəzirov (1940-2020) anadan olub. Sumqayıt şəhərinin baş rəssamı işləyib, şəhərdəki "Sülh göyərçini" abidəsinin həmmüəllifidir.

**12 may 1944** – Tanınmış rəssam Ənvər Əmirhüseyn oğlu Əliyev (1944-2003) Bakıda anadan olub. Üzeyir Hacıbəyli obrazına ən çox müraciət edən rəssamdır, başqa görkəmli şəxsiyyətlərin portretlərini çəkib.

**12 may 1952** – Əməkdar artist Azər Əlibaba oğlu Mirzəyev (1952 – 19.7.2014) Zərdab rayonunun Əlvənd kəndində doğulub. Gənc Tamaşaçılar Teatrının aktyoru, Milli Dram Teatrının direktor müavini olub.

**12 may 2005** – Xalq artisti, məşhur xanəndə Sara Bəbiş qızı Qədimova (31.5.1922 –2005) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının, Opera və Balet Teatrının solisti olub.

**12 may 2011** – Görkəmli rejissor, aktyor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu (Həsənov; 18.10.1949 – 2011) vəfat edib. Musiqili Komediya, Milli Dram teatrlarında tamaşalar hazırlayıb. Yuğ Dövlət Teatrının yaradıcısıdır. Filmlərdə çəkilib.

### Dünya

**9 may 1883** – İspan yazıçısı və filosofu Xose Orteqa-i-Qasset (1883-1955) anadan olub. Əsərləri: "Kütlələrin üsyanı", "İncəsənətin humanistsizləşdirilməsi" və s.

**9 may 1924** – Gürcü şairi, nasir Bulat Okucava (1924-1997) Moskvada doğulub. Əsərlərini rusca yazıb. Sözlərinə yazılmış mahnılar bir çox filmlərdə ("Belarus vağzalı", "Səhranın bəyaz günəşi" və s.) səslənir.

**10 may 1903** – Özbək şairi Qafur Qulam (1903-1966) anadan olub. Nizami Gəncəvinin əsərlərini özbək dilinə tərcümə edib.

**10 may 1888** – Amerika kino bəstəkarı Maks Stayner (Maximilian Raoul Steiner; 1888-1971) anadan olub. Ən yaxşı kino musiqisinə görə üç dəfə "Oskar" alıb.

**11 may 1904** – İspan rəssamı, heykəltəraş, yazıçı, rejissor Salvador Dali (Salvador Felipe Jacinto Dali; 1904 – 23.1.1989) anadan olub. Sürrealizmin banilərindən biridir.

**11 may 1916** – İspan yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1989) laureatı Kamilo Xose Sela (Camilo Jose Cela; 1916-2002) anadan olub. "Paskual Duartenin ailəsi", "Arı şanı", "Apelsinlər qış meyvələridir" və s. romanların müəllifidir.

**12 may 1842** – Fransız bəstəkarı, lirik operaların müəllifi Jül Massne (Jules Massenet; 1842-1912) anadan olub. Əsərləri: "Verter", "Tais" və s.

**12 may 1907** – Amerika aktrisası Ketrin Hepbern (Katharine Hepburn; 1907-2003) anadan olub. Dörd dəfə "Oskar" mükafatına layiq görülüb.

**Hazırladı: Vüqar Orxan**

№35 (1908)
11 may 2022
www.medeniyyet.az

# Barbarlığın mənzərəsi

## Nyu-Yorkda "Agdam delenda est" adlı sərgi keçirilib



Xəbər verildiyi kimi, mədəniyyət naziri Anar Kərimov ABŞ-a səfəri zamanı mayın 5-də, Nyu-York şəhərindəki qalereyaların birində "Agdam delenda est" adlı sərginin açılışında iştirak edib.

Sərgi İtaliyanın məşhur incəsənət xadimi, kurator, fotoqraf Fabrisio Konti tərəfindən təşkil edilib. Sərgidə Ermənistan ordusunun yerlə yeksan etdiyi Ağdam şəhərində, eləcə də Cəbrayıl, Füzuli, Şuşa və işğaldan azad olunmuş digər ərazilərdə çəkilmiş fotolar nümayiş olunub. Həmçinin Fabrisio Kontinin müəllifi olduğu elektron sərgi və 3D elektron tur da nümayiş etdirilib.

Sərgi Qarabağın işğal dövründə dağıdılmış muzeylərin, mədəniyyət ocaqlarının dünya ictimaiyyətinə tanıdılması, erməni barbarlığının mənzərəsini nümayiş etdirmək baxımından böyük əhəmiyyət daşıyır.

Sərginin adı qədim Roma tarixinə aid edilən məşhur "Karfagen yerlə yeksan edilməlidir" – latınca "Carthago delenda est" ifadəsindən götürülüb.



Eramızdan əvvəl III-II əsrlərdə finikiyalıların Karfagen şəhər-dövləti (Şimali Afrika, indiki Tunis ərazisi) ilə Aralıq dənizində hökmranlıq uğrunda müharibələr aparan Roma ard-arda iki dəfə qalib gəlsə də, Karfagen yenidən dirçəlməyi bacarmışdı. Bundan sonra Karfageni darmadağın etməyi qarşıya məqsəd qoyan romalılar üçüncü müharibədə şəhəri tamamilə yandırıb, sonra da torpağını şumlayıblar. Rəvayətə görə, şumlanmış torpağa duz səpilib ki, o bir daha dirçəlməsin. O vaxtdan "Karfagen yerlə yeksan edilməlidir" sözləri savaşda qəddarlıq və vandalizmin ifadəsi kimi "zərb-məsəl"ə çevrilib. Erməni işğalçıları da kabus şəhərə çevirdikləri Ağdamda, eləcə də darmadağın etdikləri digər şəhər və kəndlərdə məhz bu cür barbarcasına davranıblar...

# "Cənnətim Qarabağ"

## Tbilisidə "Şuşa İli"nə həsr olunmuş musiqili gecə



Mayın 7-də Tbilisidəki Vaxtanq Salaridze adına konsert zalında "Şuşa İli"nə həsr olunmuş "Cənnətim Qarabağ" adlı musiqili gecə keçirilib.

Konsert ölkəmizin Gürcüstandakı səfirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Təhsil nazirlikləri, Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi və Azərbaycan Milli Konservatoriyasının tərkibindəki İncəsənət Gimnaziyasının birgə təşkilatçılığı ilə reallaşıb.

Tədbirdə Azərbaycanın və Türkiyənin Gürcüstandakı səfirliklərinin, SOCAR-ın Gürcüstan nümayəndəliyinin əməkdaşları, soydaşlarımız, yerli ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə bu il Azərbaycanda "Şuşa İli" elan olunub. Azərbaycandan kənarda da "Şuşa İli"nə həsr olunan silsilə tədbirlər keçirilir. Tbilisidə təşkil olunan musiqili gecə də belə tədbirlərdən biridir. Bu qəbildən tədbirlər Gürcüstanın bölgələrində də təşkil olunacaq.

Türkiyənin Gürcüstandakı səfirinin müavini Onur Sevim və başqaları çıxış edərək fikirlərini bölüşüb, Azərbaycan xalqını Qələbə münasibətilə bir daha təbrik ediblər.

Tədbir konsert proqramı ilə davam edib. Səhnədə quraşdırılmış ekranda müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşaya səfərlərini, əsgərlərimizin azad etdiyi ərazilərdə ucaltdıqları bayraqların, Şuşanın foto və video görüntüləri nümayiş olunub.

"Qarabağ şikəstəsi", "Cənnətim Qarabağ", digər musiqi və rəqs nömrələri, "Vətənimsən, Azərbaycan" şeir-kompozisiyası, Xurşidbanu Natəvanla bağlı səhnəcik alqışlarla qarşılanıb.

Tədbir Azərbaycan Prezidentinin "Qarabağ Azərbaycandır!" sözləri ilə başa çatıb.

# Türk dünyasının rəngləri və əl işləri Antalyada nümayiş olunub

6-8 may tarixində Türkiyənin Antalya şəhərində Beynəlxalq Yörük Türkmən Festivalı keçirilib. Festival çərçivəsində TÜRKSOY tərəfindən "Türk dünyasının rəngləri" və "Türk dünyası əl işləri" adlı sərgilər də açılıb.



Türk dünyasının ənənəvi əl işlərinin təbliğ olunduğu, türk xalqlarının mədəniyyət və incəsənətini sənətsevərlərə təqdim edildiyi sərgilərin açılışına TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı da qatılıb.

29 ölkənin təmsil olunduğu festival "Yörük köçü" – dəvə, çoban itləri, at və ulaqların da yer aldığı "kortej"in keçidi ilə başlayıb. "Yörük köçü" festival iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Türk cümhuriyyətlərində yaşadılan sənətkarlıq nümunələrinin fotoşəkillərindən ibarət "Türk dünyasının rəngləri" sərgisi də maraq doğurub. Ziyarətçilər ata-babalardan qalma əl işlərini yaxından görmək imkanı qazanıblar.

"Türk dünyası əl işləri" sərgisində Azərbaycandan Nahid Vahabov (taxta), Qırğızıstandan Gülsanə Atamkulova (tikmə, keçə, ənənəvi geyim), Özbəkistandan Mədinə Kasımbayeva (süzgəc, tikmə, etnik geyim), Dilmurod Xalikov (süzgəc, tikmə), Qazaxıstandan Saule Bapanova və Rauşan Bapanova (keçə) əl sənətlərini nümayiş etdiriblər.

Qeyd edək ki, Azərbaycan festivalda geniş heyətlə təmsil olunub. Milli Məclisin deputatları Sabir Rüstəmxanlı və Nizami Cəfərov, Mədəniyyət Nazirliyinin sektor müdiri Elgün Əliyev, Azərbaycanın Ankaradakı səfirliyinin əməkdaşı Ceyhun Xəlilov, ölkəmizin İstanbuldakı baş konsulluğundan Zaur Allahverdizadə festivalın açılış mərasiminə qatılıblar.

Bundan başqa, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "Səma" rəqs qrupu, Türkiyədə fəaliyyət göstərən "Antalya-Azərbaycan: mədəniyyət və həmrəylik", "Gələcəyin insanları məkanı, gələcəyin imkanları məkanı", "Azərbaycan deyincə" və digər dərnəklər ölkəmizi təmsil ediblər.

Azərbaycanla bağlı qurulan çadır və stendlərdə ölkəmizin tarixi, gözəl təbiəti və zəngin mətbəxini təbliğ edən, Azərbaycan-Türkiyə qardaşlığını tərənnüm edən ekspozisiya nümayiş etdirilib.

**Mehparə Sultanova**
**Ankara**

# Xalqların adət-ənənələri və mətbəxi

## Daşkənddəki festivalda ölkəmiz də təmsil olunub



Daşkənddəki Mirzə Uluqbəy adına Beynəlxalq məktəbdə "Xalqların adət-ənənələri və mətbəxi" festivalı keçirilib. Ənənəvi tədbirdə Özbəkistanda akkreditə olunmuş diplomatik korpusun üzvləri, mədəniyyət mərkəzləri öz xalqlarının mədəniyyətini və milli mətbəx nümunələrini təqdim ediblər.

Festivalda ölkəmizi Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) təmsil edib.

Ölkəmiz üçün ayrılmış guşədə müxtəlif kitablar, Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı nəşrlər, Azərbaycanın Qarabağ bölgəsinin qadın geyimləri, milli musiqi və məişət əşyaları və suvenirlərimiz nümayiş olunub. Azərbaycan guşəsində qonaqlara plov, dolma, qutab, dovğa və şirniyyatlarımız təklif edilib.

AMM-in "Azərbaycan qızları" rəqs ansamblının üzvləri milli rəqslərimizi ifa ediblər.

# Puşkinin üçcildliyi 85 min, Qoqolun dördcildliyi 40 min dollara

## Nadir kitablar hərraca çıxarılıb

Son vaxtlar Rusiyada nadir kitab nüsxələrinin hərrac satışına maraq artıb. "Litfond" auksion evində mütəmadi olaraq belə satışlar keçirilir.

Aprelin 21-də böyük rus şairi Aleksandr Puşkinin (1799-1837) sağlığında nəşr olunmuş üç kitab – "Ruslan və Lyudmila", "Qafqaz əsiri" və "Poltava" poemaları ümumilikdə 7,5 milyon rubla (təxminən 107 min dollar) satılıb.

Puşkinin ilk kitabı – "Ruslan və Lyudmila" poeması 1820-ci ildə işıq üzü görüb və Rusiyada kitab kolleksiyaçıları arasında ən nadir nüxsələrdən sayılır. "Qafqaz əsiri" mənzum povesti 1822-ci ildə nəşr olunub. Şairin 1828-ci ildə yazdığı "Poltava" poeması isə bir il sonra o dövr üçün kifayət qədər böyük tirajla – 1200 nüsxə çap edilib.

Üç kitabdan ibarət dəstin ilkin hərrac qiyməti 6 milyon rubl (85 min dollar) olub.

Bir qədər əvvəl Puşkinin ən məşhur əsəri – "Yevgeni Onegin" mənzum romanının 1833-cü ildə işıq üzü görən ilk nəşri 1 milyon rubla satılmışdı. Sankt-Peterburqda 2000 tirajla çap olunmuş kitabın hazırda yaxşı vəziyyətdə qalan nüsxələri nadir tapıntı sayılır.

Mayın 12-də isə "Litfond" auksion evində görkəmli rus yazıçısı Nikolay Qoqolun sağlığında çap olunmuş yeganə seçilmiş əsərlər dəsti – dördcildliyi hərraca çıxarılacaq. Dördcildliyə yazıçının "Dikanka yanında xutor axşamları" hekayələr toplusu, bu toplunun davamı sayılan "Mirqorod" povestləri, eləcə də ayrıca "Povestlər" və "Komediyalar" kitabları daxildir. Kitablar dəri cilddə, Qoqolun imzası və şəxsi möhürü ilə çap olunub.

Dəstin ilkin satış qiyməti 2,8 milyon rubl (hazırkı kursla 40 min dollar) elan olunub.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 151 il əvvəl...

**10 may 1871-ci ildə** Almaniya və Fransa arasında müharibənin (1870-1871) yekunlarına dair Frankfurt sülhü imzalanıb. Sazişə əsasən, müharibədən qalib çıxan Almaniya Fransanın Elzas və Lotaringiya vilayətlərini özünə birləşdirdi. Birinci Dünya müharibəsinin (1914-1918) nəticələrinə görə, Fransa itirdiyi əraziləri geri aldı.

### 105 il əvvəl...

**11 may 1917-ci ildə** Moskvada Ümumrusiya müsəlmanlarının 1-ci qurultayının (1-11 may) yekun sənədləri sırasında Məhəmməd Əmin Rəsulzadənin hazırladığı qətnamə layihəsi qəbul olunub. Qətnamədə Rusiyanın federativ respublikaya çevrilməsi, milli bölgələrə muxtariyyətin verilməsi əksini tapmışdı. İmperiyanın bütün bölgələrini təmsil edən 800-dək nümayəndənin qatıldığı qurultayın rəyasət heyətinə azərbaycanlı Əlimərdan bəy Topçubaşov da daxil idi. Qurultayda Ümumrusiya Müsəlmanlarının Mərkəzi Şurasının yaradılması barədə qərar da qəbul olunub.

### 89 il əvvəl...

**10 may 1933-cü ildə** Almaniyada hakimiyyətə gəlmiş faşistlər paytaxt Berlində və digər şəhərlərdə "tonqal bayramları" təşkil ediblər. Faşist ideyalarına zidd olan yüz minlərlə kitab, o cümlədən klassik alman yazıçılarının əsərləri yandırılıb.

### 82 il əvvəl...

**10 may 1940-cı ildə** Hitler Almaniyası Avropanın neytrallıq elan etmiş ölkələrinə – Lüksemburq, Hollandiya və Belçikaya hücum edib. Lüksemburq həmin gün, Hollandiya mayın 15-də, Fransa və Britaniyanın yardım göstərdiyi Belçika isə mayın 28-də işğal olundu.

### 83 il əvvəl...

**11 may 1939-cu ildə** Uzaq Şərqdə Xalxin-Qol çayı üzərində sovet-monqol və yapon qoşunları arasında döyüşlər başlayıb. Müharibəyə səbəb Yaponiya qüvvələrinin Monqolustanın SSRİ ilə sərhəd bölgələrinə hücumu olmuşdu. Monqolustanla qarşılıqlı hərbi yardım sazişi olan SSRİ buna cavab olaraq müharibəyə qoşuldu. General Georgi Jukovun başçılığı altında sovet-monqol qoşunlarının birgə əməliyyatları nəticəsində avqustun 31-də Yaponiya qüvvələri Monqolustan ərazisini tərk etməli oldular, sentyabrın 16-da isə Yaponiya sülh bağlamağı xahiş etdi. Rəsmi statistikaya görə, sovet-monqol qüvvələri 20 min nəfər, Yaponiya 60 min nəfər itki vermişdi. Yaponiya ilə bağlanan sülh 1941-1945-ci illər müharibəsi dövründə SSRİ-ni Şərq cəbhəsi sarıdan nisbətən arxayın etmişdi.

### 57 il əvvəl...

**12 may 1965-ci ildə** Almaniya Federativ Respublikası yəhudi soyqırımına görə (Holokost) rəsmən üzr istəyərək İsrail dövlətini tanıyıb və onunla diplomatik əlaqələr qurub. Buna etiraz olaraq ərəb dövlətləri AFR ilə əlaqələri kəsiblər.

### 28 il əvvəl...

**12 may 1994-cü ildə** Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş – "Bişkek protokolu" qüvvəyə minib. Sənədə Ermənistan və Azərbaycanın parlament sədrləri, həmçinin Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının rəhbərləri imza atmışdı. Azərbaycan tərəfi sənədə iki əlavə ilə imza atmışdı. Protokolun 5-ci abzasında "tutulmuş ərazilər" sözü "işğal olunmuş ərazilər"lə əvəzlənmiş və atəşkəsdən sonra cəbhə xəttində yerləşdiriləcək müşahidəçilərin "beynəlxalq müşahidəçilər missiyası" olması qeyd olunmuşdu. Sənədə əsasən, tərəflər daha sonra beynəlxalq vasitəçilik sayəsində yekun sülh sazişi imzalamalı idilər.

### 18 il əvvəl...



**10 may 2004-cü ildə** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik irsinin öyrənilməsi və təbliği, bu irsdən bəhrələnərək sosial, xeyriyyə, maarifçilik, mədəniyyət və digər istiqamətlərdə layihələr həyata keçirmək məqsədilə yaradılan Heydər Əliyev Fondu fəaliyyətə başlayıb. Fonda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva rəhbərlik edir.

**Hazırladı: V.Orxan**

Lənkəran Dövlət Dram Teatrının kollektivi teatrın direktoru Tofiq Heydərova qardaşı

**Əlizamanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

"Mədəniyyət" qəzetinin kollektivi Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərova qardaşı

**Əlizamanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1352
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641